khazar-view.com

mart - 2011

294

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU




# Novruz

ISSN 2218 - 2772

AYLIQ DƏRGİ










# "XƏZƏR"DƏ NOVRUZ ŞƏNLİYİ

Universitetin rəhbərliyi, müəllim heyəti və tələbələrinin birgə Novruz şənliyi keçirildi. Bayram tonqalının ətrafında tələbələrin ifaları, rəqsləri bir-birini əvəz etdi. İştirakçılar şənlənib əyləndilər, bir-birlərini təbrik edib, xoş arzularını bildirdilər, xatirə şəkilləri çəkdirdilər. Bayram şənliyində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru Con Rayder və qonaqlar iştirak edirdilər.














Fevralın 19-da Sumqayıt şəhərinin Səməd Vurğun adına Dram Teatrında şəhər təhsil işçiləri, valideynlər, 11-ci sinif şagirdləri və qeyri-hökümət təşkilatları nümayəndələrinin Xəzər Universitetinin rəhbərliyi ilə görüşü keçirildi. Görüşü giriş sözü ilə Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdiri Vidadi Bağırov açaraq, qonaqları və salona toplaşanları salamladı, toplantının məramını açıqladı və iştirakçılara Xəzər Universitetindən gələn qonaqları - universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlını, universitetin rektoru professor Con Rayderi, universitetin prorektoru, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Rafiq Əhmədovu, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylini, İngilis dili departamentinin müdiri dosent Eldar Şahgəldiyevi və digərlərini təqdim etdi.

V. Bağırov çıxış üçün ilk sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. H.İsaxanlı universitetin dünəni və bu günü haqqında geniş məlumat verdi, müasir universitetin mahiyyəti haqqında danışdı. Xəzər Universitetinin rektoru professor Con Rayder dünyanın müxtəlif universitetləri ilə olan əlaqələr və bundan sonra da bu əlaqələrin genişlənməsi ilə əlaqədar görüləcək işlərdən danışdı. Universitetin prorektoru professor Rafiq Əhmədov Xəzər Universitetində tədris edilən ixtisaslar, tələbələrə yaradılmış demokratik şəraitdən və universitetin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbinin uğurlarından, Bey-



nəlxalq Bakalavr statusu almasından danışdı. Universitetin İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli Xəzər Universitetində keçirilən olimpiadalardan danışdı və orta məktəblərin son sinif şagirdlərini aprel ayında keçiriləcək VIII olimpiadada fəal iştirak etməyə çağırdı. Rəsmi hissənin sonunda universitetin rektoru professor Con Rayder Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdiri V. Bağırova "Xəzər Universiteti ilə Fəal Əməkdaşlığa görə" Təşəkkür Plaketini təqdim etdi.

Rəsmi hissədən sonra Xəzər Universiteti tələbələrinin və "Dünya" məktəbi şagirdlərinin hazırladığı konsert proqramına başlandı. Konsert "Dünya" məktəblilərinin ifasında səslənən "Çırpınırdı Qara Dəniz" şərqisi ilə başladı. Şagirdlərin ingilis dilində ifa etdikləri "Arşın mal alan" operettasından səhnələr sürəkli alqışlarla qarşılandı və salondakılar şagirdlərin peşəkarcasına oynadıqları səhnəni xatirə olaraq öz mobil telefonlarına köçürdülər. Tələbələrdən Elvin Əliyev, Vüsal Arzumanlı və musiqi müəllimi Fərid Əliyevin ifasında səslənən mahnılar böyük rəğbətlə qarşılandı. Universitetin qızlardan və oğlanlardan ibarət rəqs qruplarının ifasında nümayiş etdirilən "Uzundərə" və "İgidlər" rəqsləri salondakıları riqqətə gətirdi. Konsert Fərid Əliyev, Elvin Əliyev və Vüsal Arzumanlının ifasında möhtəşəm "Azərbaycan" mahnısı ilə sona çatdı. Xəzər Universitetinin 20 illiyinə həsr edilmiş Sumqayıt səfəri, yəqin ki, uzun müddət yaddaşlardan silinməyəcək. Qarşıda universitet kollektivinin Mingəçevir şəhərinə səfəri gözlənilir.



***Əlövsət Əmirbəyli,***
*İctimai Əlaqələr və Media üzrə direktor,*
*Xəzər Universiteti*



# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN MƏŞĞƏLƏSİ

Fevralın 22-də Xəzər Universitetində ənənəvi "Elm və Sənət Məclisi"nin 45-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, müzakirəyə çıxarılan "Novruz çərşənbələri: tarixi kökləri və regional özəllikləri" mövzusuna aid mülahizələrini bildirdi və sözü məruzəçi - tarix elmləri doktoru Güllü Yoloğluya verdi. G.Yoloğlu novruz çərşənbələrinin tarixi kökləri və regional özəllikləri haqqında maraqlı məruzə ilə çıxış etdi. Məruzədən sonra məşğələdə iştirak edən Azərbaycanın tanınmış elm adamları mövzu ətrafında geniş müzakirələr apardılar. Rafiq İsmayılov (BDU-nun professoru), Bəhmən Əliyev (AMEA-nın baş elmi işçisi), Ləman Süleymanova (AMEA-nın Folklorşünaslıq İnstitutunun elmi işçisi), Nəzakət Hüseynova (BDU-nun professoru), Tahir Şahbazov (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı), Əli Şamilov (AMEA-nın Folklorşünaslıq İnstitutunun əməkdaşı), İsmayıl Umudlu("Ayna-Zerkalo" qəzetinin əməkdaşı), professor Füzuli Bayar, Süleyman Əliyarlı (BDU-nun professoru), professor Məhərrəm Qasımlı (AMEA-nın Ədəbiyyat İnstitutu), Cəlil Nağıyev (Asiya Universitetinin rektoru), professor Qəzənfər Paşayev, Hamlet İsaxanlı və digərləri mövzu ilə əlaqədar çıxış etdilər. Hamlet İsaxanlı maraqlı məruzə və müzakirəyə görə Güllü Yoloğluya, çıxış edənlərə, həmçinin iştirakçılara təşəkkürünü bildirdi. Sonda xatirə şəkli çəkildi.



# "GƏNCLƏR ÜÇÜN TƏHSİL MƏRKƏZİ"NİN TƏQDİMATI




**Fevralın 25-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə bu ilin ən yaxşı qeyri - hökümət təşkilatı seçilən "Gənclər üçün Təhsil Mərkəzi"nin (GTM) təqdimatı keçirildi. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev tədbiri açaraq, sözü təşkilatın İctimai əlaqələr departamentinin rəhbəri İnqilab Zərbəliyevə verdi. Təşkilatın nümayəndəsi tələbələrə Tələbə Qrant Proqramı, müxtəlif mübadilə proqramları, iş imkanları, karyera proqramları haqqında məlumat verdi. Təqdimatda iştirak edən əcnəbi tələbələrə isə təşkilatın yeni layihəsi olan Əcnəbilər üçün Azərbaycan dili məktəbi haqqında məlumat verildi. Sonda tələbələrin sualları cavablandırıldı.**

# XƏZƏR UNİVERSİTETİNDƏ TƏNTƏNƏLİ YUBİLEY



**Əziz Nanə xanım!**

*Xəzər Universiteti kollektivi adından Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayırıq.*

*Siz neçə illərdir ki, universitetdə tələbələrin təlim-tərbiyəsi kimi çox vacib bir işlə məşğul olur, universitetin ictimai həyatında səmərəli fəaliyyət göstərirsiniz. İşlədiyiniz dövrdə tələbələrlə, onların valideynləri ilə, müəllimlərlə, inzibati işçilərlə münasibətiniz, səmimiyyətiniz, idarəçilik qabiliyyətiniz Sizi ətrafdakılara sevdirmiş, Sizə hörmət qazandırmışdır.*

*Əziz Nanə xanım!*



*Siz Xəzər Universitetində 19 illik fəaliyyət dövrünüzdə həmişə böyük həvəslə, istəklə, bütün gücünüzü qoyaraq əzmlə çalışmış, üzərinizə düşən işlərin öhdəsindən uğurla gəlmiş, Xəzər Universitetinin prinsip və ideallarına vicdanla əməl etmisiniz. Bu mənada Siz Xəzər Universitetinin ən səmimi, ən fədakar dostlarındansınız. İnanırıq ki, Siz hələ neçə illər "Xəzər"in uğurlarına bizimlə birlikdə sevinəcək, şərəfini hər zaman uca tutduğunuz universitetin yeni-yeni uğurlar qazanmasına öz töhfənizi verəcəksiniz.*

*Bir daha Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edir, işlərinizdə uğurlar arzulayırıq.*

*Xəzər Universiteti*
*kollektivi adından*
*27 fevral 2011-ci il* *prof. Hamlet İsaxanlı*

*(yubiley tədbirindən xəbər səh.15-də)*







# "XƏZƏR" MİNGƏÇEVİRDƏ



Xəzər Universitetinin yaradılmasının 20 illiyi ilə əlaqədar olaraq Mingəçevir şəhərində universitet rəhbərliyinin təhsil işçiləri, şagirdlər, valideynlər və ictimaiyyət nümayəndələri ilə görüşü keçirildi. Görüşü Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Nazir Sultanov açaraq, qonaqları və salona toplaşanları salamladı. N. Sultanov Xəzər Universiteti, onun cəmiyyətdəki yeri haqqında xoş sözlər söylədi və sözü universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. H. İsaxanlı Mingəçevir şəhərində ictimaiyyət nümayəndələri, valideynlər və yuxarı sinif şagirdləri ilə görüşün mühüm əhəmiyyət daşıdığını vurğuladı. O, salona toplaşanlara Xəzər Universitetinin yaranması tarixindən, bu günə kimi görülən işlərdən danışdı və qeyd etdi ki, universitetin kollektivi 20 ildə əldə etdiyini qorumaq və bundan sonra da dünyanın tanınmış universitetləri arasında özünə layiq yer tutmaq üçün var gücü ilə çalışacaq.

Xəzər Universitetinin rektoru professor Con Rayder uzaq Amerikada Xəzər Universiteti haqqında eşitdiyini və belə bir universitetdə rektor kimi çalışmasından böyük qürur duyduğunu bildirdi. O, Azərbaycanın digər bölgələrində olduğu kimi, Mingəçevir şəhərində də keçirilən görüşdən çox məmnun olduğunu söylədi.

Universitetin İctimai Əlaqələr və Media üzrə direktoru Əlövsət Əmirbəyli şəhər təhsil şöbəsinin rəhbərliyinə və 7 saylı məktəbin kollektivinə səmimi görüş üçün təşəkkür etdi. O, görüşdə iştirak edən qız və qadınları 8 Mart bayramı, bütün iştirakçıları isə qarşıdan gələn Novruz Bayramı və Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 20 illiyi münasibətilə təbrik etdi.







Ə.Əmirbəyli Xəzər Universitetinin bu il də ənənəvi olaraq keçirəcəyi VIII Olimpiada haqqında geniş məlumat verdi və yuxarı sinif şagirdlərini həmin olimpiadada fəal iştirak etməyə çağırdı.

Görüşdə iştirak edən 7 saylı məktəbin direktoru Aida İsmayılova, məktəbin müəlliməsi Fərанə İmanova Xəzər Universiteti haqqında xoş sözlər söylədilər. Onlar övladlarının da bu il Xəzər Universitetinə daxil olduqlarını qürurla qeyd etdilər və dünya universitetləri reytinqində Azərbaycandan 1-ci yerə çıxan bu universitetlə fəxr etdiklərini bildirdilər. Sonra salondakıları maraqlandıran suallara cavab verildi.

Rəsmi hissədən sonra universitet tələbələrinin və "Dünya" məktəbi şagirdlərinin iştirakı ilə konsert proqramına başlandı. Universitetin rəqs qrupunun ifasında "Uzundərə" rəqsi, Elvin Əliyevin ifasında "Sevil" operasından Balaşın ariyası, qızlardan ibarət rəqs qrupunun ifasında "Sarı gəlin" rəqsi, Vüsal Arzumanlının klassik estrada proqramından ifa etdiyi mahnılar sürəkli alqışlarla qarşılandı. Universitetin "Dünya" məktəbi şagirdlərinin ingilis dilində nümayiş etdirdikləri "Arşın mal alan" səhnəciyi mingəçevirliləri heyran etdi. Sonda "Dünya" məktəbi şagirdlərinin ifasında səslәndirilən "Çırpınırdı Qara Dəniz" şərqisi salondakıları riqqətə gətirdi və bütün salon ayaq üstdə onları alqışlara qərq etdi və möhtəşəm Azərbaycan Bayrağının dalğalandırılaraq səhnəyə gətirilməsi ilə konsert başa çatdı. Biz qonaqlar yüksək səviyyədə təşkil olunmuş görüşdən böyük məmnunluq duyduğumuz kimi, mingəçevirlilər də görüşü ən xoş təəssüratlarla tərk etdilər.

Bundan sonrakı səfərlərimiz Şəkiyə və sonra isə Gürcüstan və Türkiyə respublikalarına olacaqdır.

**Əlövsət Əmirbəyli,**
***İctimai Əlaqələr və Media üzrə direktor,***
***Xəzər Universiteti***



# XƏZƏR UNİVERSİTETİNDƏ BAYRAM ŞƏNLİYİ

8 MART

Martın 7-də Xəzər Universitetində 8 mart – Beynəlxalq qadınlar günü münasibətilə çay süfrəsi ətrafında bayram şənliyi keçirildi. Qadınlara bayram hədiyyələri təqdim olundu. Sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru professor Con Rayder və digərləri çıxış edərək, qadın əməkdaşları təbrik etdilər, onlara cansağlığı, ailə səadəti və işlərində müvəffəqiyyətlər arzuladılar. Bayram şənliyi musiqinin müşayiəti ilə davam etdi, iştirakçılar rəqs edib şənləndilər.










# AMERİKALI MUĞAM İFAÇISI "XƏZƏR"DƏ



Martın 16-da Xəzər Universitetində ABŞ Muğam Cəmiyyətinin sədri Cefri Verbokla (Jefri Verbock) universitetin müəllim və tələbələrinin görüşü keçirildi. Görüşü universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, Cefri Verbokun Amerikada mədəniyyətimizin təbliği ilə əlaqədar gördüyü işlərdən danışdı. C. Verbok tarda, kamançada və udda Azərbaycan muğamlarını ifa etdi, muğam musiqisi ilə bağlı tələbələrin suallarını alətlərdə səsləndirməklə cavablandırdı. Sonda qonağa təşəkkür əlaməti olaraq gül dəstəsi təqdim edildi.






# KOMPÜTER ŞİRKƏTİNİN TƏQDİMATI

Martın 15-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə "DNS komputer" şirkətinin təqdimatı keçirildi. Şirkətin İnsan resursları şöbəsinin müdiri Rəşad Nəsirov iştirakçılara şirkət haqqında məlumat verdi. Şirkətin marketinq şöbəsinin nümayəndəsi Hikmət Məmmədov isə iştirakçılara "DNS Akademiyası" adlı layihə haqqında danışdı. Sonra tələbələrə işə qəbul üçün ərizə formaları paylandı, tələbələrin sualları cavablandırıldı.



# MY KHAZAR UNİVERSİTY

Words: Hamlet Isakhanli

(translated into English by Alison Mandaville and Martha Lawry)

Music: V. Adigozelov and
R. Mustafayev

From stately Baku on my Caspian shores
my Khazar University illuminates the world.
Lessons in poetry, the arts, and humanities
unlock the secrets of the universe, my Khazar University.

Embrace of life,
a pure place in my heart,
a warm hearth of best resolve:
this is my Khazar.

Fiery call of my youth,
from deep seas to lofty mountains,
a beloved flowering garden:
this is my Khazar.

A name renowned, sought throughout the land,
so many vows of love whispered in these arms—
my life fills with meaning; my soul strives for the summits;
inspiration's bright spring overflows from my Khazar.

# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- *İsaxan İsaxanlı.* Səmimiyyət heykəli 16
- Xaricdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin beynəlxalq forumu 18
- Интервью 1 news.az с основателем и председателем совета директоров и попечителей Университета "Хазар" Гамлетом Исаханлы 22
- *Aləmzər Cabbarova.* Bahar həsrətinə qovuşan ömür... 24
- *Güləndam İsaxanlı.* Unudulmaz müəllimim haqqında qəlbimin dedikləri 26
- *Hamlet İsaxanlı.* Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? 28
- *Narmina Kazimova.* About some methods of English language teaching (ELT) 36
- Erməni ekstremistlərin qanlı əməlləri barədə arxiv materialları 38
- *Мариам Ахундова. Калужский бакинец* 40
- *Afaq Şıxlı.* Şeirlər 44
- *Альфред Курашвили.* Глубинные причины глобальных кризисов и пути их предотвращения 46
- "Dünya" məktəbi dəvət edir 53
- Правила жизни: Муслим Магомаев 54
- Sosial şəbəkələr Azərbaycanda ailə modelinə ciddi zərbə vurur 57
- "Dünya" məktəbi 74



Xəzər XƏBƏR

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**



Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Tofiq ABASQULIYEV**
**Nurəddin RZAYEV**
**Cəmil HƏSƏNLİ**
**Bəhlul ABDULLA**
**Nizami CƏFƏROV**
**Əfqan ABDULLAYEV**



Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Yəmən HAŞIMOVA**

Foto:
**MEDİA MƏRKƏZİ**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

GÜRCÜSTAN

1921-ci ildən nəşr olunur

# "GÜRCÜSTAN" QƏZETİNİN 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ

*Əziz dostlar!*

*Sizi "Gürcüstan" qəzetinin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.*

*Sayca daha böyük bir xalqın içində azlıqda ola-ola öz ana dilində qəzet nəşr etdirmək, şübhəsiz ki, milli-mənəvi varlıq baxımından tarixi əhəmiyyətə malikdir və Siz bu yolda millət qarşısında öz vəzifənizi layiqincə yerinə yetirirsiniz.*

*Uzun illər ərzində Gürcüstan azərbaycanlıları tərəfindən nəşr olunan, Gürcüstan azərbaycanlılarının öz tarixi kökünə, vətəninə bağlanmasında əvəzsiz rolu olan mətbu nəşrlər arasında "Gürcüstan" qəzetinin mərkəzi yeri var. Bu qəzet həmişə Gürcüstan azərbaycanlılarının iqtisadi-təsərrüfat fəaliyyəti, tarix, mədəniyyət və təhsili kimi məsələlərə mühüm yer vermiş, gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrini hifz etməyə və dərinləşdirməyə çalışmışdır.*

*Zaman-zaman qəzetin işıq üzü görməsində müəyyən maddi, mənəvi, texniki çətinliklər olsa da, Siz öz amalınızdan geri çəkilməmiş, xalqa layiqli xidmətinizi davam etdirmisiniz.*

*"Gürcüstan " qəzeti hər zaman kəsərli qələm sahiblərinin və nüfuzlu təşkilatçıların varlığı və birliyi ilə fərqlənmiş, uğur qazanmışdır. Dostum Süleyman Əfəndinin şəxsində onların hamısına xalqımızın, o cümlədən Azərbaycanda yaşayan Gürcüstan ziyalılarının salamlarını çatdırıram. "Gürcüstan" qəzetinin ənənələrini yaşatmaq və inkişaf etdirmək yolunda Sizin hər birinizə cansağlığı və səadət arzulayıram.*

***Hörmətlə,***
***Hamlet İsaxanlı***

# BP ŞİRKƏTİNİN İŞƏ QƏBUL PROQRAMI İLƏ BAĞLI TƏDBİR

Fevralın 28-də Hyatt otelinin Quba zalında BP şirkəti işə qəbul proqramı ilə bağlı tədbir keçirdi. BP şirkətinin İnsan resursları şöbəsinin nümayəndəsi Mətanət İmanova tədbiri giriş sözü ilə açaraq, iştirakçıları salamladı. Tədbirdə müxtəlif nazirlik və təşkilatların əməkdaşları, bir sıra universitetlərin məzun və tələbələri iştirak etdilər. Xəzər Universiteti tədbirdə universitetin Peşə inkişaf mərkəzinin təşkilatçılığı sayəsində Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri ilə təmsil olunmuşdu. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev çıxışında BP şirkəti ilə Xəzər Universiteti arasındakı əməkdaşlıqdan danışdı. BP şirkətinin universitetlər üzrə koordinatoru Nigar Əhmədova bu əməkdaşlığın davam etdirilməsinin zəruriliyini xüsusi qeyd etdi.

Khazar VIEW

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nuraddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA

Photo:
MEDIA CENTRE

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93
E-mail: xazarxabar@khazar.org

Certificate: 376
Index: 67178
Order: 190
Copies: 3000

# XƏZƏR UNİVERSİTETİNDƏ TƏNTƏNƏLİ YUBİLEY

Fevralın 27-də Xəzər Universitetinin Mərkəz kampusunda universitetin İnzibati şöbəsinin müdir müavini, təcrübəli təhsil işçisi və təşkilatçısı, ömrünün 19 ilini Xəzər Universitetində böyük ruh yüksəkliyi və gənclik əzmi ilə çalışan və çalışmaqda davam edən Nanə xanım Kələntərlinin yubileyi münasibətilə təntənəli mərasim keçirildi. Mərasim yubilyarın həyat və fəaliyyətini əks etdirən slayd-filmin nümayişi ilə başlandı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, Nanə xanımın Xəzər Universitetinin yaranması və fəaliyyətindəki səmərəli xidmətindən danışdı, ad günü münasibətilə onu təbrik etdi. Universitetin prorektorları Rafiq Əhmədov və Məhəmməd Nuriyev, Lüğət və Ensiklopediya Mərkəzinin müdiri Tofiq Abasquliyev, dekanlar Nigar Bağırova, İnqilab Əhmədov, Cabir Xəlilov, Humanitar və təşkilati işlər üzrə müşavir Nailəxanım İsayeva, Kitabxana və informasiya mərkəzinin müdiri Tatyana Zaytseva və əməkdaşı Lüdmila Sotova, Xəzər Universitetinin hamilik etdiyi 3 saylı uşaq evinin direktor müavini Məhbubə Hüseynova və başqaları da yubilyarı təbrik etdilər. Sonda Nanə xanım Kələntərli yubiley mərasiminin təşkilatçı və iştirakçılarına dərin təşəkkürünü bildirdi. Yubiley mərasimi konsert proqramı ilə müşayiət olundu.

*(Şəkillər səh. 7-də)*

# KARYERA MƏRKƏZLƏRİNİN İNKİŞAFI PROQRAMINA HƏSR OLUNMUŞ TƏDBİR

Fevralın 28-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycan ofisində Beynəlxalq Karyera Mərkəzləri Assosiasiyasının Karyera Mərkəzlərinin İnkişafı Proqramına həsr olunmuş tədbiri keçirildi. Beynəlxalq Karyera Mərkəzləri Assosiasiyasının koordinatoru, Beynəlxalq Əmək Təşkilatının karyera mərkəzləri üzrə eksperti Mətləb Mahmudov tədbiri giriş sözü ilə açaraq, proqram haqqında məlumat verdi. Sonra bir sıra nazirlik və təşkilatların, özəl işə düzəltmə agentliklərinin nümayəndələri gələcək əməkdaşlıqla əlaqədar müzakirələr apardılar. Tədbirdə Xəzər Universitetinin Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev bir sıra karyera proqramları və gələcək layihələrlə bağlı məlumat verdi.

# "ZAMANLA ÜZ-ÜZƏ" VERİLİŞİNDƏ

*Xəzər Universitetinin rektoru professor Hamlet İsaxanlının iştirakı ilə İctimai TV-də göstərilmiş "Zamanla üz-üzə" verilişi martın 1-də "Mədəniyyət" kanalı ilə təkrar nümayiş etdirildi.*

# "AÇIQ DƏRS"DƏ İŞTİRAK

*Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 2-də İctimai TV-də "Açıq dərs" verilişində (canlı proqram) iştirak etdi. Verilişdə, eyni zamanda, Turizm İnstitutunun rektoru Cəfər Cəfərov və TQDK-nın sədri Məleykə Abbaszadə iştirak edirdilər.*

# TƏLƏBƏLƏR ARASINDA SORĞU

Martın 3-də Xəzər Universiteti Peşə inkişaf mərkəzi universitetdə 250 nəfər tələbə arasında sorğu keçirdi. Sorğu aşağıdakı açıq suallardan ibarət idi: Universitetdə hansı şirkətin (təşkilat, müəssisə) təqdimatının keçirilməsini istərdiniz? Peşə inkişaf mərkəzi sizə necə kömək edə bilər? Peşə inkişaf mərkəzindən hansı fəaliyyəti gözləyirsiniz? Tələbələr sorğuya cavablarında universitetdə Xalq Bank, Bakcell, Akkord, AST, Kral TV və bir sıra turizm şirkətlərinin təqdimatlarının keçirilməsini, ingilis dilində danışıq klubunun təşkil olunmasını, Peşə inkişaf mərkəzinin onların asudə vaxtının daha səmərəli təşkil olunması üçün fəaliyyət göstərməsini arzu etdiklərini bildiriblər. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev sorğunun tələbələrin fikirlərinin öyrənilməsi üçün çox vacib amil olduğunu qeyd etdi və müvafiq istiqamətlərdə addımlar atılacağını söylədi.

# SƏMİMİYYƏT HEYKƏLİ



*Fevral ayının 18-də sevimli şairimiz Nəriman Həsənzadənin 80 yaşı tamam oldu. Mən Nəriman müəllim haqqında "sevimli şairimiz" dedim. Əslində, demək olar ki, əksəriyyət şairlər haqqında belə deyirlər. Kimi hörmət xətrinə, kimi də xoşuna gəlsin deyə. Amma Nəriman Həsənzadə haqqında "sevimli şairimiz" ifadəsini işlətməmək, sadəcə, günah olardı. O, doğrudan da hamının sevdiyi, hamının məhəbbətlə, sevərək oxuduğu ən lirik şairlərimizdən biridir.*

*2009-cu ildə mən "Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Sergey Yesenin" adlı kitabım üzərində işləyərkən, kitaba redaktorluq etməsi üçün Nəriman Həsənzadəyə müraciət etdim. Ciddi etiraz etmədi, kitabı istədi. Kitabın əlyazmasını ona verdim. Təxminən 10 gün sonra bir axşam Nəriman müəllim mənə telefon etdi: "Qurban sənə, İsaxan, kitabını oxudum, mən böyük məmnuniyyətlə bu kitaba redaktorluq da edəcəm, ön söz də yazacam. Yesenini mən də ürəkdən sevirəm". Nə ön söz, Nəriman Həsənzadə bu kitaba "Yesenin - Puşkindən sonrakı Rusiyadır" adlı bir giriş məqaləsi yazdı. Elə bir məqalə ki, o məqalə adı çəkilən kitaba xüsusi rövnəq verdi, xüsusi gözəllik, şirinlik, ruh gətirdi. Yeri gəlmişkən, buna görə Nəriman Həsənzadəyə bir daha təşəkkür edirəm.*

*İlahi, nə qədər doğma, şirin, səmimi səslənir "qurban sənə" ifadəsi bu insanın, bu şairin, bu şəxsiyyətin dilində. Ümumiyyətlə, başqasının dilindən eşidəndə heç bir özəlliyi hiss edilməyən, bəzən hətta yersiz, quru, süni görünən sözlər nə qədər doğma səslənir, gözəlləşir, şirinləşir, həlimləşir Nəriman Həsənzadənin dilində. Bunların hamısının kökündə bir şey durur – Nəriman Həsənzadə səmimiyyəti.*

*Mən səmimiyyətə heykəl bilirəm Nəriman Həsənzadəni!*

*Bu yazıda məqsədim Nəriman müəllim haqqında fikir söyləmk deyil, sadəcə şairi təbrik etməkdir, deyəsən, təbriki də bir az uzatdım. Amma neynəyəsən, söhbət Nəriman Həsənzadədən gedəndə, axıb tökülmək istəyir kağıza sinəndəki bütün şirin, həzin, doğma sözlər.*

*Əziz Nəriman müəllim!*

*Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Nə qədər xoşbəxtəm ki, Sizinlə, az da olsa, səmimi məclislərdə yan-yana oturub, sizin şirin söhbətlərinizə qulaq asmaq mənə nəsib olub. Sizə uzun ömür, möhkəm cansağlığı, poeziya kəhkəşanında yeni-yeni uğurlar arzulayıram.*

***Hörmət və səmimiyyətlə,***
***İsaxan İsaxanlı***

# "SPRİNG RECRUİTMENT" İŞƏ QƏBUL PROQRAMININ İKİNCİ MƏRHƏLƏSİ

Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə martın 5-də universitetdə AIESEC təşkilatı tərəfindən "Spring recruitment" işə qəbul proqramının ikinci mərhələsinin imtahanları keçirildi. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev tədbiri açaraq, sözü təşkilatın Azərbaycan nümayəndəliyinin rəhbərinin köməkçisi Zərəngiz Hüseynovaya verdi. O, yaradılan şəraitə görə universitet rəhbərliyinə təşəkkür etdi və proqram haqqında bir daha qısa məlumat verdi. Xəzər Universitetinin və digər universitetlərin 200-ə yaxın tələbəsi AİESEC təşkilatına üzv olmaq üçün imtahanda iştirak etdilər. AİESEC təşkilatının Mübadilə proqramının rəhbəri Mihay Negru və təşkilatın İnsan resursları şöbəsinin rəhbəri Krina Flutur növbəti üçüncü mərhələnin şərtləri və digər məsələlərlə bağlı iştirakçıları məlumatlandırdılar.

## "ELM VƏ SƏNƏT MƏCLİSİ"

Xəzər Universitetinin nəşriyyatında "Elm və sənət məclisi"nin 2-ci kitabı çapdan çıxmışdır. Kitaba 11-20-ci məclislərin materialları daxil edilmişdir. Xatırladaq ki, 1-10-cu məclislərin materiallrından ibarət 1-ci kitab 2008-ci ildə buraxılmışdı.

Kitabın tərtibçisi və redaktoru, həmçinin "Elm və sənət məclisi – ünsiyyət ehtiyacı" adlı ön sözün müəllifi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.




Kitabda Azərbaycan və xarici ölkələrin görkəmli alim və tədqiqatçılarının – Camal Mustafayev, Mustafa İslamoğlu, Hamlet isaxanlı, Elnur Nəsirov, İsmail Serageldin, Norman Stone, Turac Atabaki, Yavuz Akpınar, Firudin Ağasıoğlu, Tariyel Məmmədov və Aydın Xanın "Elm və sənət məclisləri"nin məşğələlərində etdikləri məruzələr və aparılmış müzakirələr yer almışdır.

## "THE VOICE OF AZERBAIJAN" QƏZETİNİN TƏQDİMATI

Martın 1-da Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə Bakıda nəşr olunan "The voice of Azerbaijan" ("Azərbaycanın səsi") qəzetinin təqdimatı keçirildi. Qəzetin baş redaktorunun köməkçisi Səidə Əliyeva tələbələrə qəzetin fəaliyyət istiqamətləri haqqında danışdı, onları redaksiya ilə əməkdaşlığa dəvət etdi və suallara cavab verdi.

## MİLLİ MƏŞĞULLUQ ASSOSİASİYASININ YARADILMASI

Martın 5-də Beynəlxalq Əmək Təşkilatının (İLO) təşkilatçılığı ilə "Anqlo-Amerika BS" şirkətinin ofisində Milli Məşğulluq Assosiasiyasının yaradılması ilə bağlı tədbir keçirildi. Beynəlxalq Əmək Təşkilatının nümayəndəsi Mətləb Mahmudov tədbiri açaraq, sözü "Anqlo-Amerika BS" şirkətinin rəhbəri Fatma Bağırovaya verdi. O qeyd etdi ki, yeni yaranacaq assosiasiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri universitetlərlə əlaqələrin qurulması olacaq. Tədbirdə iştirak edən Xəzər Universitetinin Peşə inkişaf mərkəzinin koordina-toru İsgəndər Ağayev bir sıra proqram və layihələrin həyata keçirilməsi üçün assosiasiyanın yaradılmasının vacibliyini bildirdi. Debat Vətəndaş Cəmiyyəti ( DVC) İctimai Birliyinin icraçı direktoru Şahin Seyidzadə Xəzər Universiteti ilə əməkdaşlığın zəruriliyini xüsusi olaraq vurğuladı.

## "QADIN DÜNYASI" VERİLİŞİNDƏ

Xəzər Universiteti Psixoloji Məsləhət və Psixoterapiya Mərkəzinin direktoru psixoterapevt Ülkər İsayeva martın 5-də İctimai TV-də "Qadın dünyası" verilişinin qonağı oldu. Verilişin mövzusu "Dəbin psixologiyası" idi.

## TƏLƏBƏLƏR AIESEC-Ə ÜZV OLDULAR

Martın 11-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə AIESEC təşkilatı tərəfindən "Spring recruitment" işə qəbul proqramının son mərhələsi keçirildi. Təşkilatın Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Apatre layihənin inkişaf istiqamətləri haqqında məlumat verəndən sonra üç mərhələdə keçirilmiş müsabiqənin yekunlarına görə təşkilata üzvlüyə qəbul edilən tələbələrin siyahısı elan olundu.

# XARİCDƏ TƏHSİL ALAN VƏ MƏZUN OLMUŞ AZƏRBAYCANLI GƏNCLƏRİN BEYNƏLXALQ FORUMU

***Forumda 25 ölkədən 150 azərbaycanlı gənc iştirak edib***



Martın 11-12-də Fransanın Strasburq şəhərində Avropa Şurasının (AŞ) mənzil-qərargahında Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclər Təşkilatının (ASAİF) "Azərbaycan-20 – Baxış-2020" adlı beynəlxalq forumu keçirildi.

Martın 11-də ASAİF-in sədri Orxan Əkbərov forumu açaraq, tədbirdə 25 ölkədən 150 azərbaycanlı gəncin iştirak etdiyini diqqətə çatdırdı, forumun əhəmiyyətini vurğuladı, gənclərin səmərəli dialoq aparacaqlarına əminliyini bildirdi. Qeyd etdi ki, xaricdə təhsil alan azərbaycanlı gənclər ölkəmiz haqqında həqiqətlərin təbliği baxımından mühüm rol oynayır.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov forumun respublikamızın müstəqilliyinin 20-ci ildönümü ərəfəsində keçirildiyini söylədi, ölkəmizin gənclərinin qazandıqları uğurlardan söz açdı. A.Rəhimov qeyd etdi ki, Azərbaycan müstəqillik illərində keçid dövrünün, müharibənin çətinliklərinə baxmayaraq, kadr potensialının formalaşdırılması istiqamətində mühüm addımlar atmışdır. Belə bir forumun Avropanın siyasi mərkəzində keçirilməsi bu işin məntiqi nəticəsidir.

Müasir müstəqil Azərbaycan dövlətinin ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliyi, mübarizliyi, əzmkarlığı, güclü iradəsi nəticəsində möhkəm sütunlar üzərində qurulduğunu diqqətə çatdıran nazir bildirdi ki, ölkəmizdə dövlət quruculuğu strategiyasının əsas istiqamətlərindən birini gənclər siyasəti təşkil edir. Dövlətimiz gənclərin intellektual səviyyəsinin yüksək olmasına, onların xarici ölkələrdə təhsil almalarına xüsusi diqqət və qayğı göstərir.

A.Rəhimov qeyd etdi ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti 2003-cü ildən keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, gənclərin ölkənin ictimai-siyasi həyatında, dövlət idarəetmə və seçkili orqanlarında rolu artmışdır. Hazırda gənclər dövlət orqanlarında rəhbər vəzifələrdə, parlamentdə daha geniş təmsil olunurlar. Bələdiyyə üzvlərinin təxminən 30 faizini gənclər təşkil edir. Onlardan 326 nəfəri bələdiyyə sədridir. Azərbaycan gəncləri bu gün 30-a yaxın beynəlxalq təşkilatda təmsil olunurlar. Azərbaycanın Avropaya inteqrasiyasının əhəmiyyətini vurğulayan A.Rəhimov gəncləri yüksək təhsil almağa, müasir düşüncəli kadrlar kimi Vətənə qayıtmağa, bilik və bacarıqlarını ölkəmizin inkişafına sərf etməyə çağırdı.

Nazir bildirdi ki, bu gün müxtəlif ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin ölkəmizin parlaq gələcəyi uğrunda, informasiya müharibəsində daim qalib gəlmələri istiqamətində savadlı və geniş dünyagörüşünə malik olmaları böyük önəm daşıyır. Məhz keçirilən bu forumlarda gənclər bir araya gəlməklə bərabər, eyni zamanda, möhkəm əlaqələr qura, ölkəmizin təbliği istiqamətində layihələr də işləyə bilərlər.

Avropa Şurasının (AŞ) Nazirlər Komitəsinə sədrlik edən Türkiyənin qurum yanındakı daimi nümayəndəsi Dəryal Batıbəy toplantıya uğurlar arzulayaraq, forumun gənclər arasında müzakirələr aparmaq, həmçinin əlaqələr qurmaq üçün münasib fürsət olduğunu qeyd etdi. Azərbaycanın bu il Danimarka ilə bir yerdə Bolonya prosesinə qoşulduğunu bildirən AŞ-ın idman, mədəniyyət və təhsil komissiyasının sədri xanım Qabriella Battani-Draqoni bununla bağlı 2012-ci ildə Azərbaycanda beynəlxalq konfransın keçiriləcəyini diqqətə çatdırdı. Q.Battani-Draqoni AŞ-ın 1974-cü ildə təsis olunmuş Gənclər Mərkəzinin 2010-cu ildə yenidən qurulmasına Azərbaycanın da yardım göstərdiyini bildirərək, mərkəzdə ildə 2 min gəncin müxtəlif təlimlər keçdiyini xatırlatdı. Komissiya sədri ölkəmizin uğurlu siyasətini xüsusi vurğulayaraq, azərbaycanlı gənclərin xaricdə təhsil almaları istiqamətində həyata keçirilən işləri müsbət qiymətləndirdi. Q.Battani-Draqoni bildirmişdir ki, bu gün AŞ-ın mənzil-qərargahında keçirilən tədbir gənclər üçün əlaqələrin qurulması, yeni ideyaların həyata keçirilməsi istiqamətində mühüm əhəmiyyət daşıyır. O, gənclərə müraciətlə dedi: "Siz təhsil aldığınız ölkələrdə öyrəndikləriniz elmi bilikləri məhz öz ölkənizdə tətbiq edin, daim yenilik gətirin. Peşəkar olmaq azdır. Siz, eyni zamanda, öyrəndiklərinizi öyrətməyi də bacarmalısınız".

Milli Məclisin komitə sədri, AŞPA-da Azərbaycanın nümayəndə heyətinin rəhbəri Səməd

Seyidov çıxışında Azərbaycanın gələcəyinin gənclərimizin əlində olduğunu bildirərək, gəncliyin sözünə, səsinə önəm verilməsinin əhəmiyyətini vurğuladı.

S.Seyidov forumun gənclərin ünsiyyət qurması sahəsində önəm daşıdığını və düşünən beyinlərin, xaricdə təhsil alan tələbələrin ölkəmizdə həyata keçirilən layihələrə cəlb olunmasının mahiyyətindən də danışdı.

S.Seyidov dedi ki, bu gün Azərbaycan öz gəncləri ilə yalnız ölkədə deyil, dünyada fəxr edir. Sevindirici haldır ki, bu gün ölkəmizin inkişafına xüsusi təkan verə biləcək gənclik formalaşmaqdadır. Əminik ki, bir müddətdən sonra gənclərin əməyi sayəsində Azərbaycan daha da çiçəklənəcək, dünyada ən yüksək səviyyədə təmsil olunacaqdır. Bu, Azərbaycan Prezidentinin istəyidir.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov xaricdə təhsil alıb ölkəmizə qayıdan hər bir gəncə bu gün böyük ehtiyac duyulduğunu, onların ölkənin gələcək inkişafında əhəmiyyətli rol oynayacaqlarını bildirdi. E. Aslanov dedi ki, gənclərimizin dünyanın ən aparıcı universitetlərində təhsil almaq imkanı qazanmaları Azərbaycanın son 20 ildə siyasi, iqtisadi və digər sahələrdə əldə etdiyi uğurlar sayəsində mümkün olmuşdur. Azərbaycanın iqtisadi göstəricilərinə dair rəqəmlərdən söhbət açmaqla sizi yormaq istəmirəm. Sadə bir faktla kifayətlənəcəm ki, Azərbaycan Prezidentinin təhsilyönümlü siyasəti nəticəsində minlərlə Azərbaycan gənci dövlət büdcəsi hesabına bu gün müxtəlif xarici ölkələrdə təhsilini davam etdirir. Dövlət başçısının iradəsi nəticəsində bu təhsil siyasəti davam etdiriləcəkdir.

Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi "qara qızıl"ın "intellektual qızıl"a çevrilməsi siyasəti dövlətimizin fəaliyyətində prioritet istiqamətlərdən biridir. Azərbaycan dəyişir, gündən-günə inkişaf edir. Ölkəmizdə vətəndaş, cəmiyyət və dövlət münasibətləri yeni mərhələyə keçir. Siyasi və iqtisadi cəhətdən ölkəmiz tamamilə yeni bir forma münasibətləri müəyyənləşdirir. Ölkənin inkişafı sayəsində Azərbaycan regionda lider dövlətə çevrilmişdir.

Qara qüvvələrin ölkəmizə qarşı apardığı siyasətə baxmayaraq, bu gün Azərbaycanın sabit bir məkana çevrildiyini diqqətə çatdıran E.Aslanov respublikamızın artıq öz təbii ehtiyatlarını ölkəmizin inkişafına yönəltdiyini bildirmişdir. Müstəqil Azərbaycan dövlətinin müstəqil siyasət yeritdiyini vurğulayan şöbə müdiri bu müstəqilliyin ilk dəfə keçən əsrin əvvəllərində əldə edildiyini, Şərq aləmində demokratik quruluşlu dövlətin məhz Azərbaycanda yarandığını, hətta Avropanın bir çox ölkələrindən əvvəl qadınlara seçmək və seçilmək hüququnun da Azərbaycanda verildiyini, söz və mətbuat azadlığının da ilk dəfə məhz ölkəmizdə mövcud olduğunu xatırlatdı və dedi ki, Azərbaycanda demokratiya təcrübəsinin tarixi qədimdir.

E.Aslanov qeyd etdi ki, ölkəyə qayıdan hər bir gənc çalışdığı sahəyə yenilik gətirəcək, demokratik ab-havanı daha da möhkəmlədəcəkdir.



"Azərbaycan gəncləri bu gün real işlərlə məşğul olmalıdır. Ölkəsini düşünən gənc təxribata uymamalıdır", - deyən E.Aslanov hər bir azərbaycanlı gəncin təhsil alıb, ölkəmizin gerçəkliklərini dünyaya çatdırmalı olduğunu vurğuladı.

Sonra forumda Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov, təhsil nazirinin müavini Elmar Qasımov, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri Bəhram Xəlilov, Azərbaycanın Avropa Şurası yanındakı daimi nümayəndəsi səfir Arif Məmmədov, TürkPA-nın baş katibi Ramil Həsənov çıxış edərək, xaricdə təhsil alan gənclərin Azərbaycanın inkişafı uğrunda rolundan danışdılar. ASAİF-in həmtəsisçiləri Ülkər İsayeva, Rüfət Əzizov və Vaqif Seyidbəyli öz çıxışlarında təşkilatın gələcək fəaliyyətinin əsas istiqamətləri üzərində dayandılar.

Fasilədən sonra Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) icraçı direktoru Emin Hacıyev təşkilatın sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın forum iştirakçılarına təbrik məktubunu oxudu.

Forumun iştirakçılarını dövlət müstəqilliyimizin bərpasının 20 illiyi münasibətilə təbrik edən Leyla Əliyeva gənclərə təhsildə və Azərbaycan naminə gördüyü işlərdə uğurlar arzulamışdır.

Təbrikdə deyilir ki, Avropanın siyasi mərkəzi Strasburqda - Avropa Şurasının binasında keçirilən ilk forum mühüm ictimai-siyasi hadisədir. Azərbaycan həqiqətlərinin Avropa məkanında təbliği, müxtəlif ölkələrdə təhsil alan gənclərimizin vahid platfor-

ma ətrafında ünsiyyətdə olması, Azərbaycanın gələcəyi ilə bağlı fikir mübadiləsinin aparılması olduqca əhəmiyyətlidir. Sevindirici haldır ki, gənclərimiz Vətənimizdə olduğu kimi, təhsil aldıqları ölkələrdə də təşkilatlanır və bu ənənə getdikcə daha peşəkar səviyyəyə keçməklə, vətəndaş cəmiyyətinin inkişafına münbit şərait yaradır.



Hələ XX əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə SSRİ məkanında və keçmiş sosialist düşərgəsinə aid olan xarici dövlətlərdə azərbaycanlı tələbələrin təhsil almağa göndərilməsinin geniş vüsət aldığının xüsusi vurğulandığı məktubda bildirilir ki, bu gün də gənclərin xarici ölkələrdə təhsil almağa göndərilməsi dövlətimizin diqqət mərkəzindədir. Son illər gənclər beynəlxalq proqramlar əsasında xarici ölkələrdə oxumağa gedirdilərsə, artıq bu iş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" vasitəsilə tənzimlənir. Bir sözlə, Azərbaycan dövləti öz gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsil almasını stimullaşdırır.

Hazırda doğma Vətənimiz Azərbaycan öz tarixinin şanlı səhifələrindən birini yaşayır. Bu gün həyata keçirilən siyasət dövlətimizin güclənməsinə, dünyada rəqabətədavamlı iqtisadiyyatın formalaşmasına, geosiyasi münasibətlərdə Azərbaycanın müstəqil subyekt kimi tanınmasına, vətənpərvər və güclü vətəndaşların olmasına hesablanmışdır.

Müraciət bu fikirlə bitir: "Əziz dostlar! Müxtəlif ölkələrdə təhsil alıb Vətənə dönmək, onun daha da inkişaf etməsi, dünyanın qabaqcıl texnologiyasının həyatın bütün sahələrinə tətbiq edilməsi, müstəqil dövlətimizin daimi olmasının gələcəkdə təmin edilməsi biz gənclərin üzərinə böyük vəzifələr qoyur. Beynəlxalq siyasi təşkilatlar, eyni zamanda, tələbə və gənclər təşkilatları ilə əməkdaşlıq əlaqələrini genişləndirmək, həmin təşkilatlarda təmsil olunmaq, gənclərin təcrübə keçməsini təmin etmək, Avropada baş verən hadisələri yaxından izləyib Azərbaycanın maraqları çərçivəsində birgə və çevik hərəkət etmək əsas hədəfimiz olmalıdır".

Sonra ABŞ-da fəaliyyət göstərən "Qarabağ" Fondunun nümayəndəsi Tural Kərimli çıxış edərək, Qarabağ həqiqətlərinin dünyaya tanıdılmasında xaricdə təhsil alan azərbaycanlı tələbələrin görə biləcəyi işlərdən danışdı.

Daha sonra "Qarabağ" Fondunun və "Xocalıya ədalət" beynəlxalq kampaniyasının təqdimatı keçirildi, forum iştirakçıları Xocalı faciəsindən bəhs edən "Məcburi köçkün Anar Usubovun uzun səyahəti" filminə baxdılar.

Martın 12-də forum öz işini dörd bölmədə davam etdirdi.

Forumun yekunu Strasburq şəhərindəki "Hilton" hotelində təşkil olunmuş şam yeməyi və Azərbaycanın əməkdar artisti Tünzalə Ağayevanın və "Jazz" qrupunun ifasında konsert proqramı və pianoçu Emil Əfrasiyabın ifası ilə yadda qaldı. Yekun tədbirdə ASAİF tərəfindən 2010-cu ildə fəallığı ilə fərqlənən gənclərə 4 nominasiya üzrə "Yaxşıların yaxşısı" plaketləri təqdim olundu. "Ən yaxşı şəbəkə qurucusu" adına York Universitetinin tələbəsi Ramin Hakimov, "Ən fəal tələbə" adına Mançester Universitetinin tələbəsi Raul Gülməmmədov, "Ən yaxşı layihə" adına Türkiyənin "Birlik" təşkilatının Xocalı Soyqırımına həsr olunan layihəsi, "Ən peşəkar gənc" adına isə mühəndis Vüqar Səmədli layiq görüldü. Daha sonra ASAİF tərəfindən layihənin həyata keçirilməsinə dəstək vermiş qurumlara "Təşəkkür Plaketləri" təqdim edildi.

Forumun işində Azərbaycanın dövlət və hökumət rəsmiləri, Böyük Britaniya, Hollandiya və Macarıstandakı səfirləri, Los-Ancelesdəki baş konsulu, Milli Məclisin deputatları, ölkəmizin müxtəlif qurumlarının təmsilçiləri, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı forumun işində iştirak etmişdir.

Xaricdə təhsil alan və məzun olmuş Azərbaycan gəncləri arasında olan əlaqələrin gücləndirilməsi və Azərbaycanın sürətli inkişafı naminə daha güclü bir insan kapitalının formalaşması, gənclərimizin milli birlik və dövlətçilik ideyası ətrafında konsolidasiyası baxımından forumun müstəsna əhəmiyyəti oldu.

## AMERICAN STUDENTS AT KHAZAR UNIVERSITY

On March 9th, Khazar University opened its doors to welcome new guests. A student from the School of Economics and Management, Ozal Aliyev, made an outstanding presentation about adjusting to a foreign country. While the presentation was going on, students had no idea about an upcoming surprise: two American students from Colorado and Ohio, Larisa Ann and Rafe Parker, who had been teaching English for Azerbaijani students in the International Learning Center (ILC), came to take part in the presentation. Before the presentation began, Ozal took Larisa and Rafe on a tour of the university. The guest students were surprised by the amount of books in the library. To the question "Why are you guys surprised?" they answered: "Well, all books here are so valuable and all of them are being used for studying at our college in the US." Another interesting thing that they liked was the students. Everybody got a chance to talk to them and hear some interesting things that they like about our country. And to the question "What kinds of meals do you like here?" Rafe answered: "Doner, dolma ve mercimek."

Larisa and Rafe added color to the presentation, because when we talk about adjusting to a foreign country, we always want to see our own country from the eyes of other people from different countries. After the presentation the guests had a great time drinking tea in the cafeteria and then going to Ozal's house to enjoy some of our national food. The day went perfectly. This event also affected every other person in the university. Students got a chance to talk to foreigners, Larisa and Rafe got a chance to visit one of the most popular universities in Azerbaijan, and Ozal got a chance to make his best presentation ever.

## ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

Martın 17-də Xəzər Universitetinin rektoru Con Rayderin sədrliyi ilə Elmi-İnzibati Şuranın iclası oldu. İclasda yeni təyinatlar; 2011-ci il yaz məzunluğu; illik büdcə prosesi; Xəzər Enerji Tədqiqatlar Mərkəzi və beynəlxalq layihələr haqqında məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edildi.

## STUDY TOUR IN TURKEY

The Sabanci University study tour was intended to acquaint staff members from Khazar University (T. Zayseva and R. Isayeva) with new developments in library and information science, alumni and development issues at Sabanci University. The tour, which ran March 8-12, 2011, was a very useful learning experience.

Sabanci University (SU) is a private research institution located in Istanbul, Turkey. Founded in 1996, SU is a small and highly focused university with 2899 undergraduates and 577 graduates, maintaining a strong emphasis on social and natural sciences. Sabanci University was ranked #946 worldwide and #8 nationwide in the field of engineering/technology by THE-QS World University Rankings 2010. Since 1999, when students began enrolling, Sabanci University itself has set an example for many universities.

The first day of the two-day visit included a wide range of discussions and lectures on the following topics: "Information Center Management Activities & New Technologies" given by the director of the Information Center, Mrs. Asuman Akyüz; SU collection development (Mr. Mehmet Manyas), the Information Center's organizational chart (Mr. Burcu Ersoy), Sabanci University History Special Collection (Mr. Adnan Chapa), information support university courses and research programs (Mr. Ersen Kavaklioglu), new search tools such as Millenium, Aquabrowse, SFX, and Metalib (Mrs. Oya Arus), policy for books on reserve (Mrs. Mine Akkurt), innovative library and information services such as Mobile Library (Mr. Deniz Baltaci), and digital collections such as E-Reserved, E-Literature, Multimedia, Abdin Dino Collection, etc.

*for the continuation look p.68*



# ГАМЛЕТ ИСАХАНЛЫ: «ЧТО НУЖНО ДЛЯ УСПЕШНОЙ БОРЬБЫ С КОРРУПЦИЕЙ? ПОЛИТИЧЕСКАЯ ВОЛЯ, И ОНА ПРЕДЪЯВЛЕНА»

***Интервью 1news.az с основателем и председателем совета директоров и попечителей Университета «Хазар» Гамлетом Исаханлы***

**02.03.2011**

**- Гамлет муаллим, как вы знаете, Министерство образования ведет серьезную работу по борьбе с коррупцией. Как Вы оцениваете участие образовательных институтов в противодействии этому позорному явлению?**

- Коррупция – самое крупное зло на пути развития общества и государства. Коррупция порождает монополию, убивает инициативу и инновацию. Как опаснейший вирус она [коррупция] морально разлагает личность и общество. Коррупция порождает беззаконие и несправедливость. Несовершенство законов, их теоретический характер и неучет реалий в свою очередь готовят почву для коррупции. Что нужно для успешной борьбы с коррупцией? Политическая воля в первую очередь.

Она предъявлена. Действие началось. Борьбу с коррупцией надо вести по всему фронту. Люди с сомнительной репутацией не должны руководить государственными учреждениями. И, конечно, надо развивать законодательство с учетом сложившихся обстоятельств.

Законы и нормативные документы должны поощрять развитие инициатив и бизнеса. Налоги, таможенные пошлины, юридические оформления должны быть человечными, открытыми, ясными. Чем яснее будет бизнес законодательство, тем меньше оснований останется для придирательств, толкающих к коррупции.

Особенно хочу отметить налоговую политику. Во всем мире для равномерного экономического развития и поощрения частного сектора нужна правильная налоговая политика. То, что США является страной развитой науки и высшего образования, новейшей технологии и инновационной экономики – результат, полученный вследствие нескольких кардинальных реформ, и среди них налоговые на первом месте.

Известно, что в среднем одну треть дохода университетов составляет плата за обучение. Остальная сумма исходит от государства и различных добровольных вкладов частных лиц и корпораций. Для корпораций такая спонсорская помощь дает снижение процентной ставки при отчислении налогов. Для развития университетов нужны дополнительные финансовые источники, так как плата за обучение далеко недостаточна. Университеты, должны отчислять 18% НДС. Мы очень надеемся на ликвидацию НДС в отношении наших университетов, потому что нужны средства на поддержку научных исследований, библиотек, лабораторий, зарплат.

**- Что же надо делать и где свет в конце тоннеля?**

- Мораль и закон – основополагающие принципы упорядоченной жизни. Если человек по своей природе не может терпеть коррупцию, то есть надежда, что он сможет возглавить борьбу с коррупцией. Но это все еще недостаточно. Потому, что борьба с коррупцией требует точного диогноза этой опасной болезни, реального плана лечения, хирургических вмешательств, вложения огромной энергии, терпения и темпа одновременно. Из-за того, что есть случаи, когда взятку хотят и дать и получить обе стороны (непотизм), уличить их одновременно не получается.

С другой стороны, когда бизнесмен на каждом шагу зависит от местных и неместных правителей, находится под давлением, то он вынужден дать взятку, чтобы довести свое дело до конца. Хотя при этом его бизнес ослабляется, а иногда даже закрывается. Происходит утечка ресурсов не на развитие бизнеса, а на взятки.

Непропорциональная зависимость приводит к коррупции. Нужно, чтобы нормальные организации и люди были самостоятельны в своих действиях на благо организации, а значит на благо об-

щества.

**- Стало известно, что университет «Хазар» оказался единственным представителем Азербайджана в верхних эшелонах нового всемирного рейтинга университетов…**

- Это исследование и соответствующий рейтинг-лист, так называемый Webometrics – дело Испанского Высшего Исследовательского Центра (Consejo Superior de İnvestigac Cientifacasiones), основанного профессором Ramon y Cajal - лауреатом Нобелевской премии 1907-го года. Главными параметрами оценки являются современность, научная сила, международное признание, и все они измеряются независимо от ВУЗов через интернет с помощью поисковых систем Google и всего прочего. Среди исследованных в январе 2011 года 19 266 университетов всего мира, в первую 6 тысяч, а также в первую лигу попал университет Хазар (5097-е место), далеко опережая остальных трех представителей Азербайджана уже из второй лиги.

В списке представлены - Грузия – двумя ВУЗами, Армения – 5, Молдова – 4, Беларусь – 7, Естония – 8, Латвия – 10, Литва – 17, Киргизия – 3, Казахстан - 3.

Webometrics объявил также список 1120 лучщих современных библиотек по всему миру, пользуясь той же методологией. В этом списке не только Азербайджан, но и весь Кавказ и Средняя Азия представлены единственной библиотекой - библиотекой университета Хазар (892-е место).

**- Предпринимаются ли в Азербайджане какие-либо шаги для того, чтобы дипломы наших вузов котировались в мире?**

- Вообще, в развитых странах вопрос об общем признании дипломов (какой-нибудь страны или ВУЗа) не ставится. За дипломом стоит престиж ВУЗа. Работодатели и университеты признают и уважают дипломы достойных вузов.

**- Как можно оценить опыт проведения централизованных выпускных экзаменов в школах?**

- Думаю, что проведение централизованных выпускных экзаменов в школах – необходимо. Это служит тому, чтобы школьники и их родители, учителя и руководство школ относились к школьному образованию более ответственно. Все это вносит вклад в объективность выпускных оценок. Конечно, можно поднимать разные вопросы, связанные с этими экзаменами, как например, степень адекватной трудности экзаменационных вопросов, содержание и форма вопросов, время проведения экзаменов, общая политика оценка знаний и т. д.

Мне кажется, что наступила пора объединить выпускные и вступительные экзамены, которые следуют друг за другом, с целью оценки знаний выпускников. Это повысило бы качество экзаменов и устранило бы параллельные испытания.

**- Министерство образования готовит предложения о внесении изменений в закон «Об основах призыва на военную службу», в которых будет отражен отказ от практики призыва на военную службу бакалавров, поступивших в магистратуру, до завершения обучения. Как вы это оцениваете?**

- Число молодых людей, поступивших в магистратуру, не такое огромное, чтобы могло повлиять на общее количество призывников. Вместе с тем, вынужденный перерыв между получением диплома бакалавра и учебой в магистратуре, не в пользу этих молодых людей, ВУЗов и государства в целом.

**- Насколько успешна политика получения молодежью образования за границей?**

- Существует три типа образования за рубежом: за счет государственных програм, по программе обмена студентов между Азербайджанскими и зарубежными ВУЗами и самостоятельное поступление. На первом месте по количеству - самостоятельное поступление, которое превосходит остальные две возможности. В последние годы государственые программы набирают оборот.

Университет Хазар тоже предлагает хорошие возможности учебы за рубежом посредством программ типа Erasmus Mundus и с помощью широкого межвузовского студенческого обмена.

**- Вы покинули пост ректора Университета. В чем причина?**

- Этому способствовало несколько причин. Во-первых, и это самое главное - желание усилить и усовершенствовать управление Университета Хазар. На мне лежала ответственность за общие организационные дела, установление принципов работы и развития. Вдобавок, я был также вынужден работать над решением кадровых вопросов, составлением учебных планов, установлением международных связей и тому прочее, в течение долгих лет. Из-за того, что я шел по непроторенной дороге и имел больше западного опыта и знания, мне приходилось руководить и стратегией, и тактикой. В итоге в настоящее время Университет Хазар имеет устойчивую традицию, подходящую человеческую и материальную базу, хорошую репутацию.

Сейчас я больше буду заниматься стратегией развития, решением крупных проблем. Повседневные и конкретные вопросы – за новым ректором (профессор John Ryder из США). Более этого, я усиливаю команду в целом – привлекаются другие новые люди, среди них и иностранцы. Кроме того, я - в процессе организации - Совете директоров и попечителей Университета Хазар. Работаю над существенным усилением Университета Хазар на международной арене. Это тоже очень важно для меня, Сейчас больше времени для научного и литературного творчества.

**Р. Ашрафли**

# BAHAR HƏSRƏTİNƏ QOVUŞAN ÖMÜR...



Həyatın qəribə axarı var... Dünən var olan bu gün yoxluğa qovuşur... Zamanın bu amansız gərdişi milyon illərdir ki, beləcə, özünəməxsus qanunauyğunluğu ilə davam edir. "Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya" deyib dədəmiz Qorqud... Dünyanın faniliyinə, insan ömrünün azlığına, həyatda yalnız xeyir əməlin əbədi yaşayacağına bundan dəqiq qiymət vermək olarmı? İnsan oğlu zaman qarşısında çox acizdir! Ona qalib gəlmək, bu axarı dəyişmək qüdrətinə sahib deyil! Bizə yalnız adımızı əbədi yaşatmaq şansı verilib! Xalq üçün yorulmadan çalışanlar, gücünü, biliyini, həyatını millət yolunda fəda edənlər bu ölümsüzlüyü qazanırlar!

Belə insanlardan biri də ölümü ilə ürəkləri yandıran Bəhlul Abdulladır. Folklorşünas alim, böyük pedaqoq, qayğıkeş insan, Dədə Qorqud irsinin yorulmaz tədqiqatçısı... Qəlbinə, ruhuna Dədə Qorqud fəlsəfəsi, işığı, müdrikliyi, hopmuş ağsaqqal... Ömrünü elm, maarif yolunda şam kimi əridən cəfakeş Azərbaycan oğlu... Biz onu belə tanıyırdıq... 70 yaşlı, elə Dədə Qorqud misallı ağ saçlı, üzündə həmişə sevinc, amma daxilində naməlum bir kədər, hüzn gəzdirən Bəhlul müəllim! Yalnız tənha qalanda, gözdən, könüldən uzaq zamanlarda çöhrəsinə qəm çökərdi... Səbəbini soruşanlara isə özünəməxsus təbəssümü ilə cavab verərdi... Dərdini başqalarına yükləməyi xoşlamazdı. Amma hamının çətinliyini, problemlərini öz çiyinlərində daşımağa hazır idi!

*Üzüyümün qaşı var,*
*Taleyimin daşı var.*
*Ürəyimdə dərdimin*
*Özümdən çox yaşı var*

- deyə qəlbinin səsini bayatıya çəkən Bəhlul müəllim bu dörd misrada öz iç dünyasını təsvir edib.

Köhnə kişilərdən idi... Mərd, sözübütöv, insan sərrafı... Elə buna görə də uşaqdan böyüyə kimi hamı onu sevirdi.

Azərbaycanın dilbər guşələrindən birində - Lerikdə, dağlar qoynunda, özü də ilk baharda dünyaya göz açmışdı. Ağır uşaqlıq illəri, çətin gənclik dövrü, fəhləlik, Azərbaycan Dövlət Universitetində təhsil, Biləsuvar rayonunda müəllimlik, sonra Azərbaycan Elmlər Akademiyasında elmi fəaliyyət... namizədlik dissertasiyası, doktorluq müdafiəsi, yüzlərlə elmi məqalələr, neçə-neçə monoqrafiyalar, onlarla dərsliklər, minlərlə şagird, tələbə, onlarla aspirant... Bu, Bəhlul Abdullanın zəngin, mənalı və dəyərli həyat yolunun qısa bir xülasəsidir. Hər insanın yaşaya bilməyəcəyi şərəfli bir ömürdür. Əsl nikbinlik təcəssümü olmağı, insanlara xeyirxahlıq, ziya bəxş etməyi bacarırdı Bəhlul müəllim!

Xalqımızın mənəvi sərvəti - şifahi xalq ədəbiyyatına sonsuz məhəbbət onda hələ gənclik illərindən folklorşünaslığa tükənməz həvəs oyatmışdı. Böyük ədəbiyyatşünas alim M. Təhmasibin rəhbərliyi altında müdafiə etdiyi namizədlik dissertasiyasının mövzusu "Yusif Vəzir Çəmənzəminli və folklor" idi. Bu sahəyə həmişəlik bağlanan alim Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda uzun illər ərzində gərgin elmi araşdırmalarla məşğul olur. Zəngin folklorumuzun ən dərin qatlarını tədqiq edir, kiçik elmi işçidən böyük elmi işçi, şöbə müdiri, aparıcı elmi işçi, baş elmi işçi məqamınadək yüksəlir. Alimin yorulmaz elmi fəaliyyəti nəticəsində 14 monoqrafiya işıq üzü görür. Şifahi xalq ədəbiyyatımızın nadir incilərnin toplanması, nəşri sahəsində əvəzsiz xidmətlər göstərir. Bu mövzuda 30-dan çox kitab yazır. Azərbaycan folklorşünaslığının ölkəmizin hüdudlarından kənarda tanınmasında onun böyük rolu var. Dəfələrlə dünyanın müxtəlif ölkələrində, mötəbər elmi konfranslarda məruzələrlə çıxış edib. "Kitabi Dədə Qorqud" ensiklopediyasının hazırlanması və nəşri sahəsindəki əməyinə görə isə Bəhlul Abdulla "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Xəyal məni təxminən 15 il əvvələ aparır...O zaman "Təhsil" nəşriyyatında çalışırdım. Müstəqilliyə qovuşan Azərbaycanda yeni dərsliklərə ehtiyac böyük idi. Bu dərsliklər qısa vaxt ərzində hazırlanıb nəşr olunmalı idi. Gecə-gündüz korrektə, redaktə ilə məşğul idik. Bəhlul Abdulla paralel olaraq bir neçə dərslik üzərində çalışır, tez-tez qoltuğunda iri əlyazma bağlamaları ilə nəşriyyata gəlirdi. Yorğun halda

əlyazmaları bizə təqdim edib zarafatla, bir az da utana-utana deyərdi: "alın, oxuyun, yenə də sizə bəla gətirmişəm". Biz bu insanın işgüzarlığına, zəhmətkeşliyinə qibtə edərdik. O zaman ağlıma da gəlməzdi ki, mən nə zamansa bu böyük alimlə, nadir insanla bir yerdə çalışacağam... Qismətimdə "Dünya" məktəbində müəllim işləmək, onunla həmkar olmaq da var imiş...

İnsan yaşlananda daha kövrək olur. Ötən il çalışdığı "Dünya" məktəbində alimin 70 illik yubileyi təntənə ilə qeyd olundu. Məktəbin pedaqoji və şagird kollektivi sevimli müəllimə gözəl hədiyyə - rəngarəng ədəbi - bədii kompozisiya hazırlamışdı. Bəhlul müəllim çox həyəcanlı görünürdü, sevincinin həddi-hüdudu yox idi... Tədbirin sonunda "Sevgi dolu alim və pedaqoq" adlı kitabın təqdimatı zamanı o, kövrəldi.... Kitabda tanınmış elm xadimlərinin, "Dünya" məktəbi müəllimlərinin və şagirdlərinin onun haqqında məqalələri yer almışdı. Bəhlul müəllim kitabı dönə-dönə vərəqləyir, hər imzanı gördükdə göz yaşlarını çətinliklə saxlayırdı...

Son vaxtlar səhhəti əl vermirdi... Bənizi solmuşdu, qəlbinin dərin qatlarında ustalıqla gizlədə bildiyi kədər artıq çöhrəsində duyulurdu. Xəstəlik bu mətin insana yavaş-yavaş güc gəlirdi... Şuxluğunu, nikbinliyini saxlamağa çalışırdı, bacardığı qədər... Ötən hər gün onun qəddini bir az da əyirdi...

Hamının təkidi ilə xaricə - müalicəyə yollanmalı oldu. "Dünya" məktəbinin müəllimləri onunla müntəzəm telefon əlaqəsi saxlayırdılar. Şagirdlər də nömrəsini əldə edib sevimli müəllimlərinə zəng vurur və bu zaman xəttin o biri başında Bəhlul müəllimin necə kövrəldiyini, təbii ki, görmürdülər. Günlər keçdikcə xəstənin səsində getgedə daha kədərli, ümidsiz notlar hiss olunurdu. Müəllimlərdən biri ilə son telefon danışığını isə "özümü çox tənha hiss edirəm, Bakıya qayıdıram" sözləri ilə bitirmişdi.

Xəbər gəldi ki, Bəhlul müəllim Bakıya dönüb. Məktəbin bir qrup müəllimi Buzovnaya, alimi ziyarətə getdi. Sadə evinin həyətində qızılgüllər əkmişdi. Bu güllərə böyük həvəslə qulluq edərdi. Amma son vaxtlar bu güllər də onun yoxluğunu duyub yaman solmuşdu... Bəhlul müəllim qonaqları israrla özü qapıyadək ötürdü. Çətinliklə yeriyirdi... Vidalaşanda isə həmişəki kimi gülümsəməyə çalışdı... Bəlkə də gülümsədi...

...Onun ölüm xəbərini eşitdikdə cənazə törəninə yetişmək üçün məktəbin müəllim və şagird kollektivi, hətta məzunlar belə Buzovnaya tələsirdilər. "Dünya" məktəbi qəfil, soyuq sükuta qərq olmuşdu... Gözüyaşlı müəllimlər, çaşqın şagirdlər...

Bəhlul Abdullanın "Dünya"məktəbində anım tədbiri keçirildi. Xatirəsi sükutla yad edildi. Həmin gün məktəbin zəngi də çalınmadı... Sonra məzarını ziyarət etdik. Sevə-sevə qulluq etdiyi həmin qızılgülləri də indi onunla artıq son dəfə vidalaşmaq üçün məzarı üzərində idi... Beləcə, qocaman alimin həyatının ibrətamiz hekayəti burada bitir... Elmlər doktoru, professor, əməkdar elm xadimi, istedadlı alim, bö-yük pedaqoq Bəhlul Abdullanın son mənzili...

Bəhlul Abdulla bu dünyaya getmək üçün gələnlərdən yox, qalmaq üçün gedənlərdən oldu... Dədə Qorqud ruhu ilə qidalanan bu kövrək qəlbli, amma, son dərəcə mətin insan şərəfli bir ömür yolunun layiqli yolçusu oldu... Baharda başlanan, elə baharda da bitən ömür yolunun... Əlvida, bizim Bəhlul müəllim!

*Aləmzər Cabbarova,*
*"Dünya" məktəbinin müəllimi*



# UNUDULMAZ MÜƏLLİMİM HAQQINDA QƏLBİMİN DEDİKLƏRİ

2011-ci ilin 25 mart günü yaddaşımda aci xatirə kimi qalacaqdır. Həmin gün görkəmli ədəbiyyatşünas, pedaqoq, folklorşünas, əməkdar elm xadimi, professor, eyni zamanda "Dünya" məktəbi şagirdlərinin sevimlisi olan Bəhlul Abdulla gözlənilmədən dünyasını dəyişdi və göz yaşlarıma boğularaq, sevimli müəllimim haqqında xatirə yazmaq kimi ağır və şərəfli bir hiss mənə hakim kəsildi.

Xəbəri eşidəndə çox sarsıldım. Bəhlul müəllim "Dünya" məktəbi şagirdlərinin ən çox hörmət etdiyi, rəğbətini qazandığı müəllimlərdən biri idi. İndi nə ağırdır onun haqqında keçmiş zamanda danışmaq... Biz hər zaman onun dərsini səbrsizliklə gözləyərdik. Heç vaxt onun dərsində yorulmaz, sıxılmazdıq. Çünki o həm bizimlə zarafat edər, həm də ciddi surətdə dərsini keçərdi. Vaxtın necə gəlib-keçdiyini özümüz də hiss etməzdik.

Bəhlul müəllim nəinki şagirdlərin, eləcə də müəllimlərin sevimlisi idi. Hər bir müəllimlə ayrıca zarafatı, xoş rəftarı vardı. Əminəm ki, bu itki tək şagirdlərimiz üçün yox, müəllimlərimiz üçün də gözlənilməz zərbə oldu. Həqiqətən də, Bəhlul müəllimin bizim üstümüzdə böyük əməyi olub. Ancaq, təəssüf ki, dünyanın işini bilmək olmur. Səbəbini bilmirəm, amma biz dəyərli insanların qədrini onlar aramızdan gedəndən sonra başa düşürük. Bu da həyatin qəribə qanunlarından biridir. Mən demirəm biz sağlığında Bəhlul müəllimin qədrini bilməmişik. Xeyr! Sadəcə olaraq onu itirdikdən sonra həyatimizda necə böyük, dəyərli yer tutduğunu bir daha anlamış olduq.

Bəhlul müəllim birinci sinifdən mənim müəllimim olub. Onun yeri mənim qəlbimdə tamam başqa idi. O həmişə mənə "səni atandan da çox istəyirəm, hətta nəvələrim kimi ürəyimin başında özünə yer eləmisən" deyərdi. Dərslər qurtarandan sonra məni kitabxanaya aparıb dəyərli məsləhətlər verər, yazdığı bayatıları mənə oxuyardı. Mən də maraqla ona qulaq asar, bu cür tanınmış alimlə yaxşı, doğma əlaqə qurduğum üçün hətta özümdə qürur da duyardım. Ancaq mənimlə danışıqlarında hərdən həyatın gərdişindən şikayətçi olduğunu da duyur, bir az yorulduğunu yaşlı gözlərindən hiss edərdim. Eyni zamanda, yaşadığı çətinliklərə baxmayaraq möhkəm bir ağac kimi ayaqda şax durduğuna da qibtə edərdim.

Bəhlul müəllim yaradıcı alim, müəllim idi. Yeni çıxmış kitablarını gətirib mənə bağışlayardı. Hətta, 2006-cı ildə işiq üzü görmüş "Bayatılarım" adlı kitabında mənə beş bayatı da həsr etmişdi. Sevimli müəllimimin bu bayatılarını sizin diqqətinizə çatdırmaq istəyirəm.

*Dağların qarı mənəm,*
*Bağların barı mənəm,*
*Bir əsmər Güləndamam*
*Atamın varı mənəm.*

*Güləndamam, güləm mən,*
*Əl vurmayın, tüləm mən,*
*Dərsimi danışanda*
*Oxuyan bülbüləm mən.*

*Meyvələrin kalı var,*
*Yetişməyib, xalı var,*
*Güləndamım, dilimin*
*Şirin-şəkər balı var.*

*Güləndamam, telim var,*
*Çaydan axan selim var,*
*Borçalı çökəyində*
*Gözəl-göyçək elim var.*

*Sel gələr, çaylar daşar,*
*Daşıb bəndləri aşar,*
*Güləndamın qəlbində*
*Vətənin eşqi yaşar.*

Bu kitabı mənə bağışlayanda kitabın üzərinə elə oradaca bir bayatı da yazdı:

*Güləndamım gülümdü,*
*Böyüyən sünbülümdü.*
*Şeir deyən zamanda*
*Bir bahar bülbülümdü.*

"Kitabi-Dədə Qorqud"da xanımlar" adlı kitabını isə mənə "Güləndamıma gözəl istəklərlə" sözlərini yazmaqla təqdim etdi. Bəhlul müəllimin mənə verdiyi bütün kitabları ən əziz xatirə kimi qoruyub saxlayıram. İndi bu kitablar kitabxanamın ən dəyərli kitablarındandır.

Nə vaxtsa sevimli müəllimimin ölümü haqqında oturub bir yazı yazacağım heç ağlıma gəlməzdi. Dünya, doğrudan da, fani dünyadır. İnşallah, Bəhlul müəllimin yeri cənnət olar! Çünki bu qədər yazıb-yaratmış, öz xalqının folklorunu bu qədər əzmlə, istəklə araşdırmış, öz şagirdlərinin qəlbində əbədi heykələ dönmüş bir insan Allahın sevimli bəndəsi olmalıdır. Bəhlul müəllim mənim heç bir zaman unutmayacağım insanlardan biridir.

Çox sevdiyi baharda gəldi bu dünyaya Bəhlul müəllim. Baharda da getdi bu dünyadan. Hörmətli müəllimim! Yeriniz cənnət, ruhunuz şad, baharlı olsun!

Bu bayatını da məndən əbədi xatirə kimi aparın:

*Sel gələr, çaylar daşar,*
*Daşıb bəndləri aşar,*
*Bəhlul müəllimin adı*
*Mənim qəlbimdə yaşar.*

**Güləndam İsaxanlı,**
*"Dünya" məktəbinin 10-cu sinif şagirdi*

## AZƏRBAYCAN MİLLİ MƏŞĞULLUQ ASSOSİASİYASININ YARADILMASI İLƏ BAĞLI NÖVBƏTİ TƏDBİR

Martın 12-də Beynəlxalq Əmək Təşkilatının (İLO) təşkilatçılığı ilə Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyinin ofisində Azərbaycan Milli Məşğulluq Assosiasiyasının yaradılması ilə bağlı növbəti tədbir keçirildi. Beynəlxalq Əmək Təşkilatının nümayəndəsi Mətləb Mahmudov tədbiri açaraq, sözü Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyinin icraçı direktoru Şahin Seyidzadəyə verdi. O qeyd etdi ki, yeni yaranacaq assosiasiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri universitetlərlə əlaqələrin yaradılması olmalıdır. Tədbirdə iştirak edən Xəzər Universiteti Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev "Karyera Məktəbi" adlı yeni layihə haqqında məlumat verdi.

## TƏLƏBƏ MƏCLİSİNİN PREZİDENTİ SEÇİLDİ

Martın 16-da Xəzər Universiteti Tələbə Məclisi prezidentinin seçkisi oldu. Səhər saat 9 - da başlanan seçki gün ərzində davam etdi. Tələbə Məclisinin Nizamnaməsinə əsasən universitetin bütün tələbələri seçkidə iştirak edə bilərdilər. Seçkidə seçici siyahısına daxil edilmiş 1500 nəfər tələbədən 804 nəfəri iştirak etmişdir. Emil Əliyev seçkidə iştirak edən seçicilərin səs çoxluğu ilə Tələbə Məclisinin prezidenti seçilmişdir. Onu bu münasibətlə təbrik edir, yeni ictimai işdə fəaliyyətinin uğurlu olmasını arzulayırıq.

Əliyev Emil Hamlet oğlu 1992-ci il iyunun 6-da Bakı şəhərində anadan olmuşdur. 1998-ci ildə Xətai rayonundaki 17 saylı orta məktəbin 1-ci sinifinə getmişdir. 2009-cu ildə məktəbi bitirərək, Xəzər Universitetinin Mühəndislik və Tətbiqi elmlər fakültəsinə daxil olmuştur. Hazırda ikinci kursda oxuyur.



## MKM: TƏLƏBƏMİZİN ROMANI 20 ƏN YAXŞI ƏSƏR ARASINDA

Martın 17-də Milli Kitab Mükafatı müsabiqəsinə təqdim olunmuş 112 əsərdən 20 ən yaxşı əsər açıqlanmışdı. Tədbirdə Milli Kitab Mükafatının təşkilat komitəsi, ekspertləri, münsifləri, media mənsubları, ictimai təşkilatların nümayəndələri, yazıçılar iştirak etmişdi. 20 ən yaxşı əsər sırasına universitetimizin tələbəsi Azər İsaakın "Marsa qayıdış" romanı da daxil edilmişdi. Müsabiqənin əsasnaməsinə uyğun olaraq sonrakı mərhələdə seçilmiş 10 əsər arasında isə tələbəmizin romanı yer almamışdır. Qaliblərin adları mayın 31-də açıqlanacaq.

## "DÜNYA" MƏKTƏBİNDƏ 31 MART SOYQIRIM GÜNÜ QEYD OLUNDU

Martın 31-də "Dünya" məktəbində 31 mart soyqırım günü qeyd olundu. Məktəbin müəllimi Əkbər Hüsüyev 93 il əvvəl ermənilərin Azərbaycanda törətdikləri dəhşətli soyqırım haqqında şagirdlərə məlumat verərək, bir dəqiqəlik sükut elan etdi. Şəhidlərin xatirəsi rəhmətlə anıldı.

## ABŞ-A İŞGÜZAR SƏFƏR

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 22-dən 30-dək ABŞ-da səfərdə olmuşdur. Səfər zamanı o, Vaşinqtonda tarixi Linkoln teatrında həm təsisçisi olduğu Qarabağ Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan ritmləri" adlı konsertdə iştirak etmiş, həmin gün Dünya Bankının Avropa və Mərkəzi Asiya regionları üzrə İnsan İnkişafı Departamentinin nümayəndəsi, Azərbaycanda ali təhsil islahatı layihəsinə rəhbərlik edən, təhsil sahəsi üzrə iqtisadçı Saçiko Kataoka ilə də görüşmüş və digər tədbirlərdə iştirak etmişdir. H. İsaxanlı, həmçinin, Vaşinqtonda fəaliyyət göstərən New World Radio - ya (Yeni Dünya Radiosu) müsahibə vermişdir. Müsahibəni aşağıdakı saytda dinləmək olar: http://www.wust1120.com/Audio/Azerbaijani%20Radio%20Hour.mp3

*(Səfərdən ətraflı məlumat jurnalın gələn nömrəsində dərc olunacaq).*

# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-cı (iyun 2010), 287-ci (iyul 2010), 288 - ci (sentyabr 2010), 289 - cu (oktyabr 2010), 290 - cı (noyabr 2010), 291 - ci (dekabr 2010), 292 -ci (yanvar 2011) və 293 -cü (fevral 2011) nömrələrində*

*Hamlet İSAXANLI*



***Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

## Tarixdə dövlət və hakimiyyət fəlsəfəsi. Qədim dövr

İbn Xəldunun tarix fəlsəfəsi, dövlətin yaranması, mahiyyəti və çöküşü barədə qurduğu nəzəriyyə, həmçinin sivilizasiya və hakimiyyət fəlsəfəsi ilə tanış olduq. Bu və digər məsələləri dərindən təhlil edən, maraqlı nəzəriyyə quran "Müqəddimə"sində İbn Xəldun özündən əvvəlki mütəfəkkirlərin fikirlərindən istifadə etsə də, nəinki onlardan və müasirlərindən xeyli qabağa getmiş, həmçinin 18-19-cu əsrlərdə Avropada yaşamış bir çox böyük mütəfəkkirlərin (Machiavelli, Vico, Hegel, Marks,...) fikir və nəzəriyyələrini qabaqlamış, orijinal, müntəzəm və sistemli nəticələrə gəlmişdi.

İndi dövlət və hakimiyyət fəlsəfəsi ilə bağlı məsələlərə tarix boyu – İbn Xəldundan əvvəl və sonra hansı baxışların mövcud olduğunu, onların təkamülünü izləməyə çalışacağıq. Mövzumuzu bir sıra suallara tarix boyu cavab axtarmaq yolu ilə davam etdirəcəyik. Dövlət niyə yarandı? Dövlət necə olmalıdır? Dövlətin mənafeyi əsasdır, yoxsa insanın? Dövlət və millətin rifahı üçün nə vacibdir–mənəviyyat, ya siyasət? Qədim dövrə və Şərq mütəfəkkirlərinin fikirlərinə xüsusi yer verməl fikrindəyik.

### Qədim Çin



*Konfutsi*

Qədim Çində **Konfutsi** (həmçinin ingiliscə **Kun-fu-tszı** və ya **K'ung-fu-tzu**,fransızca-**Confucius**, almanca-**Konfuzius**) məktəbi mənəvi-etik prinsipləri önə çəkir, humanizmi, insanlara sevgini idarəetmənin əsas prinsipi və nümunəvi hökmdarın əsas əlaməti hesab edir, qanun və gücün tətbiqini ifrata varmaq kimi şərh edirdi. "Özünə rəva bilmədiyini başqasına etmə". O, xalqın mənəvi tərbiyələndirilməsini vacib sayırdı. Tərbiyələndirmə isə praktik işlərlə, təcrübə ilə,

musiqi və ədəbiyyat vasitəsilə aparıla bilər. İnsanı məcbur etməklə deyil, utandırmaq və vicdan hissini oyatmaqla idarə etmək doğrudur. Qorxu deyil, inam yaratmaq doğrudur. "Qisas almaqdan öncə iki məzar qaz". Adil, dürüst insanları irəli çəkib, ədalətsizləri uzaqlaşdıranda xalq tabe olur. Hərə öz işini görməli, öz yerini bilməli, başqasının işinə qarışmamalıdır. "Adları düzəltmək", normadan kənara çıxılıbsa, ona qayıtmaq lazımdır. Böyüklərə, yuxarıda duranlara ehtiram mühümdür. Dünya insanın mənəvi kamilliyə can atması nəticəsində gözəlləşə bilər. "Comərd insan ədalətə can atır, balaca adam qazanc güdür". Konfutsi məktəb yaratmış, tələbələrinə dərs demiş, təlimi və şəxsi təsiri nəticəsində külli miqdarda fəal ardıcılları əmələ gəlmişdir.[1]

Çin özündən kənarda qalan dünyadan həm fiziki-coğrafi, həm fikir cərəyanı mənasında nisbətən təcrid olunmuş vəziyyətdə olub. Çinə kənardan gələn əsas fəlsəfi-dini-mədəni təsir buddizm olub. Lakin buddizm də Çində yerli düşüncə mədəniyyəti ilə vəhdətdə dəyişmiş, Hindistanda olduğundan fərqli şəkil almışdı. Dövlət, həyat və idarəetmə işində Konfutsinin etik və psixoloji baxışları ardıcıllarının ifasında inkişaf edə-edə Çinin ən uzunömürlü və əsas, bir növ dövlət sisteminə çevrilsə də, Lao-tszı və ondan sonra gələnlərin Daosizm fəlsəfəsi və buddizm də heç vaxt kənara çəkilmədi, gah açıq, gah üstüörtülü şəkildə davam etdi.


*Laozi*

**Lao-tszı** (və ya **Laozi**), Konfutsinin müasiri olduğu və ya ondan bir qədər sonra yaşadığı güman olunan və haqqında gerçək məlumatların olmadığı bu mütəfəkkir (əgər o, həqiqətən var olmuşsa və ona aid edilənlərə əsaslansaq) etik sistemin, qaydaların mövcud olduğu bir sistemin rahatlığa deyil, tərsinə - qəzəb və qiyama gətirəcəyinə əmin idi. Daosizmin banilərindən biri, ən böyüyü hesab olunan Lao-tszı`ya görə hiylə və savad çox olan yerdə böyük yalan əmələ gələcək, böyük hiylə müdriklik1ə eyni zamanda meydana çıxıb. Sadəlik əsasdır, hadisələr öz axarı ilə, təbii yolla getməlidir.[2]


*Zhuangzi*

Daosizmin digər görkəmli nümayəndəsi **Çjuan-tszı (və ya Zhuangzi**, ? [-369] - [-286]) insanlara azadlıq verməni, onlara xoş qılıqla yanaşmanın zəruriliyini qeyd edir, onları idarə etməmək prinsipini önə çəkirdi. Bəzən "Çjuan-tszı tarixdə ilk böyük anarxist" kimi tanıdılır.[3]


*Mozi*

**Mo-tszı** (və ya **Mozi**, ? [-470] - [-391]) və onun nominalist-məntiqçi davamçıları (Mohizm) isə ölkəni idarəetmənin peşəkarlıq üzərində qurulmasını doğru sayırdılar. Xüsusi maraqlar cəmiyyəti sarsıdır, sevgini yox edir. Xeyirxahlıq etmək, fayda vermək sülhə, rifaha xidmət edir. "Ümumxalq sevgisi" fəlsəfəsini ortaya atan bu məktəb eyni zamanda ayrı-ayrı fərdlərin deyil, dövlətin qayğısına qalmağı vacib hesab edirdi, sosial bərabərlik prinsipini irəli sürürdü. İnsanlar vəhşi heyvanlar kimi qayda-qanunsuz yaşayır, bir-birinə hücum edir, güclü zəifə kömək etmirdi. Onlar qayda yaratmaq üçün, özünümüdafiə məqsədilə birləşdilər, başçı seçdilər və dövlət əmələ gəldi. Dövlət vəzifələrini ancaq istedadlı adamlar tutmalıdır. Sadə yaşamaq, təm-təraq və israfçılıqdan qaçmaq lazımdır. Konfutsi məktəbindən fərqli olaraq Mo-tszı musiqini nəcib iş hesab etmir, onu fayda verməyən məşğuliyyət sayırdı.[4]


*Han Fei Zi*

Siyasi-etik xarakterli bir əsərdə (-3-cü əsr) hökmdarın ənənələrə kor-koranə əməl etməsi, qədim hökmdarlara bənzəmək istəyi zərərli sayılır, zamanın ruhuna uyğun idarəetmə üsulu yaratmaq fikri təlqin edilirdi. **Han Fey-tszı** (və ya **Han Fei Zi**, [-?] - [-233]) insanlara

---

[1]The Chinese Classics: Confucian Analects (in Chinese and English) translated by James Legge. http://www.gutenberg.org/dirs/4/0/9/4094/4094-0.txt ; Древнекитайская философия. Т. 1. Москва, 1972

[2]Way and Its Power: Lao Tzu's Tao Te Ching and Its Place in Chinese Thought. Translated by Arthur Waley. Grove/Atlantic, Inc. 1994); Древнекитайская философия. Т. 1. Москва, 1972

[3]Rothbard, Murray. Concepts of the Role of Intellectuals in Social Change Toward Laissez Faire. The Journal of Libertarian Studies. Vol IX. No. 2, Fall 1990. 2. Zhuangzi. Basic Writings. Translations from Asian Classics. Translated by Burton Watson. Columbia University Press, 2003

[4]Mozi. Basic Writings. Translations from Asian Classics. Translated by Burton Watson. Columbia University Press, 2003; Древнекитайская философия. Т. 2. Москва, 1973

xas olan eqoizmdən onları idarə etmək üçün istifadə olunmasını vacib prinsip kimi irəli sürür. Bu işdə cəza vermək və mükafatlandırmaq əsas rol oynamalıdır. Ləyaqətli, comərd insanı idarə etmək çox çətindir, ona cəza və mükafatlandırma ilə təsir etmək olmur. Cinayətin açılması və insanların dikbaşlıq etməməsi üçün cani ilə bərabər onun yaxınları da cavabdeh hesab edilməlidir. Düzgün idarəetmənin əsasında üç ünsür dayanır: qanun, sonra hakimiyyət-güc-nüfuz və nəhayət, idarəetmə sənəti. Hökmdar öz nüfuzunu qorumalı, heç kimlə paylaşmamalı, hər kəsi öz yerində oturtmalıdır. Varlıların gəlirini yoxsullara paylamaq fikri ağılsız və ədalətsizdir. Qanun xalq üçün, idarəetmə sənəti hökmdar üçündür. Qanun hamıya açıq, şəffaf, idarəetmə sənəti isə gizlidir. Han Fey-tszı haqqında Sıma Tsyan "onda amansızlıq son həddində, şəfqət isə heçə endirilib" deyir. Qanunçuluq (leqalizm, leqizm) cərəyanının ideoloqu sayılan Han Fey-tszı prinsip etibarilə despotik hökmranlıq tərəfdarı idi. Onun hakimiyyət fəlsəfəsi İbn Xəldun və Makiavellininkindən daha radikal görünür. Han Fey-tszı tarixi prosesdə maddi şəraitin və onunla birlikdə idarəetmənin dəyişdiyini söyləyir. Tarixi öyrənmək vacibdir, məhz bu yolla indiki zamana uyğun idarəetmənin müəyyən edilməsi və tətbiqi mümkün olur.[5]


*Hsun Tzu*

Han Fey-tszı`nın müəllimi olan **Syun-tszı** (və ya **Xun Zi**, **Hsun Tzu**, ? [-310/313] - [-?]) sosial bərabərliyi və ümumxalq sevgisini nəinki sadəlövh, hətta cəmiyyət üçün təhlükə hesab edirdi. O, insanın təbiətcə eqoist və zalım olduğunu, hamının öz mənafeyini güddüyünü, düzlük və sadiqliyin, mərhəmət və şəfqətin insan təbiətinə zidd olduğunu, lakin, Konfutsi kimi, insanın tərbiyə vasitəsilə düzələ biləcəyini söyləyir, xeyirin şüurlu fəaliyyətin nəticəsi olduğunu iddia edir. Syun-tszı cəmiyyətdə rütbə nizamını, iyerarxiyanı, ictimai əmək bölgüsünü, vəzifə, mükafatlandırma və cəzaların ədalətli paylanması və tətbiqini sosial normaların əsası sayırdı. Rəiyyət hökmdara, oğul ataya, arvad ərə xidmət etməlidir. Dövlət ailədən üstündür. Qanunların ədalətli və ya ədalətsiz sayılmasından asılı olmayaraq hər kəs, o cümlədən hökmdar qanunlara tabe olmalıdır (qanunlar dəyişənə qədər). Onun və ardıcıllarının "ədalət naminə şiddət, amansızlıq mümkündür" prinsipinə əsaslanan leqizmi Konfutsiçiliyin rəsmi hökumət siyasətinə çevrilməsində rol oynamışdı.[6]

**Hindistan**

Əsasən ruhi başlanğıc üzərində dayanan **Hind fəlsəfəsi** dövlətin mənşəyi, dövlət və insan münasibətləri məsələlərinə aid geniş nəzəriyyələr yaratmayıb. Buddizmin etik təlimi bərabərlik, ədalət, mərhəmət və şəfqət üzərində qurulmuşdu. **Şankara** (8-ci əsr) "sevgi qanundan yüksəkdir" deyirdi. Hər hansı təlimi yalnız şəxsi təcrübədən keçirməklə, yaşamaqla qəbul etmək olar. Yoqa fəlsəfəsi bədən və ruhu tərbiyə etməklə ilahi başlanğıca qovuşmaq, özünə nəzarətlə eqoizmi və fərdiyyətçiliyi aşmaq yollarına əsaslanır. Siqhizmin banisi **Quru Nanak** (1469-1539) bütün insanların bərabər olduğunu, azlığın çoxluğa hökm etməsi cəhdinin kastaların yaranmasına gətirib çıxardığını irəli sürürdü.


*Quru Nanak*

Hind materialist **Çarvaka (Lokayata)** fəlsəfəsi (-6-cı əsrdən başlayaraq) həyatın əsas məqsədinin həzz, ona aparan yolun isə var-dövlət olduğunu irəli sürürdü. Dini insanlar yaradıb. Məqsədə çatmaq üçün bütün vasitələrdən istifadə etmək olar. Güclü olan haqlıdır.


*Kautilya*

**Çanakya** (və ya **Kautilya** və ya **Vişnuqupta**, [-4] - [-3]-cü əsrlər) Maurya imperiyasının ([-321]-[-185]) qurulmasında Çandraqupta Maurya ilə birlikdə həlledici rol oynamış, müşavir və baş nazir kimi fəaliyyət göstərmiş bu brahman tarixdə həmçinin böyük, hiy-

[5]Han Feizi. Basic Writings. Translations from Asian Classics. Translated by Burton Watson. Columbia University Press, 2003;Древнекитайская философия. Т. 2. Москва, 1973

[6]Xunzi. Basic Writings. Translations from Asian Classics. Translated by Burton Watson. Columbia University Press, 2003

ləgər siyasi xadim və siyasətşünas kimi qalmışdır. Hökmdarın, onun ətrafındakı məmurların vəzifə borcları, şəhər və kəndlərin idarə edilməsi, çuğulçu və xəfiyyələrin vacibliyi, sosial müdafiə, ticarət və vergi, əkinçilik və sənətkarlıq, hərb və sülh və digər məsələlər haqqında məlumat-tövsiyə kitabı yazmışdı. O, iddia edirdi ki, hər kəsi satın almaq olar, deməli hamı potensial düşməndir. Hökmdarın xoşbəxtliyi rəiyyətinin yaxşı yaşaması ilə bağlıdır.[7]

### Yunanıstan

**Demokrit** (~ [-460]-[-370]) mənəviyyatı qanundan yüksək tutsa da, kütlə üçün qanunun zəruri olduğunu deyir. Qanunlar sünidir. "müdrik şəxs qanuna tabe olmamalı, azad yaşamalıdır". Demokrit demokratyanı monarxiyadan çox üstün tuturdu: "azadlıq qul olmaqdan nə qədər yaxşıdırsa, demokratiyada kasıblıq da monarxiyada xoşbəxt sayılan həyatdan bir o qədər yaxşıdır". O, eyni zamanda dövlət və onun idarə olunmasına aid qəti fikir söyləyirdi: "dövlətin maraqları hər şeydən üstün tutulmalıdır və çalışmaq lazımdır ki, o, yaxşı idarə olunsun".[8]



*Demokrit*

**Platona** görə ("Dövlət") dövlət əməyin ictimai bölgüsünə, ixtisaslaşmağa ehtiyacdan yaranıb. Dövlətə əmlak bərabərsizliyi xasdır. Demokratiya çoxluğun ağılsızlığıdır, ata uşaqlarından, müəllim şagirdlərdən, kişilər qadınlardan qorxurlar. Tək demokratiya deyil, tiraniya, eləcə də zənginlərin və ya hərbçilərin hakimiyyətinə əsaslanan dövlət tipləri insanların təbii bərabərsizliklərinə əsaslanmadığı üçün təbii deyillər.



*Platon*

İdeal dövlət üç zümrədən ibarət olmalıdır: filosoflar idarə etməli, hərbçilər qorumalı, sənətkarlar və əkinçilər maddi nemətlər yaratmalıdırlar. Bu halda hərə öz işi ilə məşğul olub başqasının işinə qarışmır – bu ədalət deməkdir. Bu dövlət incəsənət və ədəbiyyatı təftiş etməli, pedaqoji cəhətdən ziyanlı olanları qadağan etməli, öz incəsənətini yaratmalıdır. Heç bir zümrə üçün özəl mülkiyyət yoxdur, özəl mülkiyyət həsəd və düşmənçilik yaradır. Ailənin təşkili də daxil olmaqla hər şey dövlətin əlində olmalıdır. Kişi-qadın əlaqələri də tənzim olunur - yaxşılar yaxşılarla, zəiflər zəiflərlə. Qadınlar kişilərlə eyni hüquqa malikdir, uşaqlar ümumidir. Dövlət vətəndaşların tərbiyəsi ilə məşğul olmalıdır, uşaqlar xüsusi təhsil-tərbiyə sistemi ilə yetişdirilir, istedadından asılı olaraq uşaq bir zümrədən digərinə (aşağı və yuxarı) keçirilə bilər. Filosoflar ağıllı, dürüst və ədalətli olduqları üçün hakimiyyəti onlar idarə etməlidirlər. O, sonra yazdığı "Qanunlar" əsərində bu "mükəmməl dövlət nümunəsini", ideal dövlət utopiyasının mütləqliyini xeyli yumşaltmışdı. Xüsusi mülkiyyət və sərbəst ailə siyasəti, siyasi hüquqların zümrə üzrə deyil, əmlakın dəyərinə uyğunlaşdırılması, əkinçiliyin qullara aid edilməsi, fərqli-qarışıq siyasi quruluşların mümkünlüyü qeyd və qəbul edilmişdi.



*Aristotel*

**Aristotel** öz dövlət və insan problemini "Politika" və həmçinin "Etika" əsərində şərh etmişdir. İnsan cəsur, ağıllı, ədalətli və fərasətli olmalıdır. Ədalət ümumi xoşbəxtlik de-

[7]Great Thinkers of the Eastern World: The Major Thinkers and the Philosophical and Religious Classics of China, India, Japan, Korea, and the World of Islam. Editor: Ian P. McGreal. HarperResource, 1995 (Ruscaya tərcüməsi: Великие мыслители Востока. Москва, «КРОН-ПРЕСС», 1999); Восточная философия. Минск, Харвест, 2006. Автор-составитель М.В. Адамчик)

[8]Материалисты древней Греции. Москва, 1955

məkdir, bunu əldə etmək üçün qanunlara əməl etmək və hakimiyyətə tabe olmaq zəruridir. Ünsiyyətin zəruriliyi insanları növbə ilə ailə, kənd və dövlət qurmağa gətirib çıxarır. İnsan siyasi məxluqdur. İnsanlar birlikdə ancaq yaxşı dövlətdə xoşbəxt ola bilərlər. Siyasi quruluş üç hissədən ibarətdir: qanunverici, icraçı və məhkəmə sistemi. Hakimiyyətin kimin və ya kimlərin - bir adamın, azlığın və çoxluğun əlində olmasından asılı olaraq üç "düzgün", ümumi maraqlara xidmət edən quruluş - monarxiya, aristokratiya (nəcib insanların hakimiyyəti) və politiya (respublika) əmələ gəlir. Bunların hər biri məqbuldur, hərçənd ki, monarxiya aristokratiyadan, aristokratiya politiyadan yaxşıdır.

"Düzgün olmayan", xüsusi maraqların əsas götürüldüyü halda isə uyğun olaraq tiraniya, oliqarxiya (kasıbları nəzərə almayan zənginlərin hakimiyyəti) və demokratiya (zənginləri nəzərə almayanların hakimiyyəti) alınır. Aristotelin tiraniyaya münasibəti çox kəskindir - "oğrunu deyil, tiranı öldürənə eşq olsun"! Tiran hakimiyyətdə qalmaq üçün xüsusi qabiliyyətə malik insanların yüksəlməsinə hər cür (məhv etmək daxil olmaqla) mane olmalı (!?), xəfiyyələr saxlamalı, insanlar arasına nifaq salmalı, onların ictimai həyatını nəzarətdə saxlamalı, böyük miqyaslı işlərlə baş qatmalı olur. "Düzgün olmayan" üçlüyün arasında demokratiyaya dözmək olar, bir şərtlə ki, hakimiyyət kütlənin deyil, qanunun əlində olsun. Demokratiyaya tənqidi münasibəti anlamaq üçün bir cəhəti nəzərdə tutmaq lazımdır: o dövrün yunan demokratiyası əsl seçkiyə deyil, püşkatmaya əsaslanırdı. Bu siyasi quruluş növlərinə bir qədər başqa deyilişdə Platonda da rast gəlinir.

Platonun dövlət modelində Aristotel birinci növbədə xüsusi mülkiyyətə qadağanı tənqid edir: "mülkiyyət haqqında adi fikir belə görünməmiş həzz verir". Mülkiyyətin xüsusi olması ilə yanaşı insanları xeyriyyəçilik etməyə çağırmaq olar. İnsani sifət olan xeyriyyəçilik və comərdlik xüsusi mülkiyyətsiz necə mümkün ola bilər?! Platonda ailənin ümumiləşdirilməsi də Aristoteli əsəbiləşdirir; hamıya məxsus olana kim qayğı göstərəcək?! Lakin Aristotel qul məsələsində Platona nisbətən daha radikal mövqe tutur: "aydındır ki, öz təbiətinə görə bəziləri qul, digərləri azaddır", "bəzilərinə qul, digərlərinə ağa olmaq faydalıdır". Qulları yunan olmayanlar arasından almaq doğrudur.

İnqilabların qarşısını almaq üçün üç şeyə fikir vermək zəruridir: dövlət təbliğatı, qanuna böyük hörmət və ədalət ("hər kəsə ləyaqətinə görə").

Platondan sonra ideal dövlət haqqında çoxsaylı utopik əsərlər yazılmış, proqramlar irəli sürülmüşdür. Yambulun ([-3] və ya [-2]-ci əsr) "Günəş adaları", bir qədər əvvəl yaşamış Feopompun "Meropida"sı, Cənubi Amerika, Orta Şərq və Çində mövcud olan sosializмvari hərəkat və dövlətlər, Məzdək, İbn Tüfeyl ("Həyy ibn Yəzqan"), Nizami Gəncəvi ("İskəndərnamə"). Thomas More, T. Campanella, Gerrard Winstanley, E-G. Morelly, Henri de Saint-Simon, Robert Owen, Charles Fourier və başqalarının fəaliyyət və dövlət utopiyaları haqqında xüsusi söhbət açmaq maraqlı görünsə də, ədəbiyyata göndərməklə kifayətlənirik.[9]

Müxtəlif xalqlara məxsus və müxtəlif dövrlərdə yaşamış mütəfəkkirlərin etik və siyasi görüşləri, dövlət və idarəetmə modelləri haqqında düşüncələri bir çox hallarda necə də bir-birinə yaxın, bir-birinə oxşar ola bilir! Bu, müxtəlif insanların iç dünyasının və ətraf aləmlə, cəmiyyət və dövlətlə münasibətlərinin böyük bənzərliyinin nəticəsidir və bu bənzərliyin əlamətidir. Bu, müxtəlif dövrlərdə yaşamış müxtəlif xalqların eyni və ya bir-birinə çox yaxın arzu və istəkləri, qayğı və çətinlikləri, ehtiyat və qorxuları olduğundan xəbər verir. Bu, bəşəriyyətin və tarixi prosesin vahidliyinə və bütövlüyünə dəlalət edir.

*(davam edəcək)*

---

[9]Игорь Шафаревич. Социализм как явление мировой истории. Москва, "Эксмо», 2003;
Утопический социализм. Хрестоматия. Москва, Издательство политической литературы, 1982;
İbn Tufeyl və Nizami Gəncəvinin uyğun əsərləri

# AMERİKALILARDA "KORKUNÇ TÜRK" ÖNYARGISI

*20 Mart 2011, CNN Türk*

Amerikalı tarihçi Justin McCarthy, Amerikalılarda geçmişte misyonerlerin çalışmaları nedeniyle 'korkunç Türk' imajı ve önyargılar bulunduğunu belirterek, özellikle 1915 olaylarına ilişkin iddialarla savaşmak için Türklerin önce görmek istemedikleri bu önyargıları kabul etmeleri, sonra buna göre mücadele etmeleri gerektiğini söyledi.

McCarthy, ABD'deki Türk çatı kuruluşlarından Türk-Amerikan Dernekleri Asamblesi (ATAA) ve Türk-Amerikan Dernekleri Federasyonu (TADF) tarafından düzenlenen Türk Amerikan Ulusal Liderlik Konferansında yaptığı konuşmada, ABD'de Türklere karşı uzun yıllara dayanan ön yargılar bulunduğunu, bunun özellikle de Ermeni meselesinde daha katı hale geldiğini söyledi.

New York Times'in "1915 yılı olaylarını 'soykırım' olarak nitelendiren 15 kitabın eleştirisine yer verirken, bunun karşıtı hiçbir kitabı ele almadığını" örnek veren McCarthy, ABD üniversitelerindeki ders kitaplarında da 1. Dünya Savaşı, Yunanlılar, Bulgarlar, Ermenilerle ilgili olanlar dahil hemen her konuda Türklerin suçlu gösterildiğini, filmler ve televizyon dizilerinde de bu şekildeki sunumların devam ettiğine dikkati çekti.

McCarthy, Amerikalıların genelde, tarihi ve doğal güzellikleriyle büyüleyici bulsa da Türkiye ve Türkleri "tehlikeli" zannederek Türkiye'ye gelmekten korktuğunu ifade ederek, beyinlerinde, Türkleri karikatürlerdeki koca bıyıklı, büyük bıçaklı insanlar olarak canlandırdıklarını kaydetti. Tarihçi Mccarthy, "Bu, çok komik ama gerçek" değerlendirmesinde bulundu.

### *"Ortaçağ'a dayanan korkunç Türk miti"*

Ermeni konusunda da ABD'deki insanlarla konuştuğunda çoğu kez "herkes Türklerin bunu yaptığını biliyor" cevabını aldığını anlatan McCarthy, herhangi bir soykırım olmadığını belgelerle göstermelerine rağmen, insanların kafalarına yerleştirilen "korkunç Türk miti" nedeniyle bu yanlışa inanışın sürdüğünü söyledi.

McCarthy, Türklere dair "zalim, gaddar ve hükmeden" mitinin, Türklerin "Hıristiyanların düşmanı" olarak görüldüğü Ortaçağ'a dayandığına işaret ederek, bu mitin daha sonra ABD'de de geliştirildiğini söyledi.

Amerikalıların Yunan isyanında, mantıksallığa bakmadan Hıristiyan oldukları için Yunanlıların yanında yer aldığı örneğini veren McCarthy, "Bulgar veya Rusların öldürdüğü Türk sayısı, öldürülen Hıristiyanlardan kat kat fazla olsa da Amerikalılarca bunları hiçbir zaman duyulmadığını, ABD'deki din adamlarının da o dönemlerde Türklere karşı kampanya yürüttüğünü" kaydetti.

Mccarthy, 1800'lerde ABD basınında Türkler için genellikle "barbar, katil, canavar, tiran" gibi ifadeler kullanılan karikatür ve yazılardan örnekler gösterdi.

### *"Türk imajında misyonerler etkili oldu"*

ABD'de özellikle Ermeni meselesiyle ilgili yürütülen kampanyaların, söz konusu Türk imajının yerleşmesini sağladığını belirten McCarthy, o dönem misyonerlerin Amerikalılara "Türklerin, Ermenilerden kendilerinden daha zengin, zeki ve Hıristiyan oldukları için nefret etmesi ve zaten öldürmeyi seven bir millet olması nedeniyle onları katlettiği" yönünde propaganda yaptığını söyledi.

McCarthy, bu konuda Türklerin bebekleri öldürdüğü, kadınları kaçırdığı, Sultanın, kafataslarını biriktirdiği gibi birçok karikatür ile misyonerlerin gönderdikleri "düzmece hikayelerin" sunumunu yaparak, Amerikalılarda, Türkleri o dönem hiç görmeseler bile bu imajlar oluştuğunu ve bu sayede gelişen ön yargının halen devam ettiğini dile getirdi.

### *"Önyargıyı kabullenin ona göre savaşın"*

McCarthy, ABD'deki ön yargının Türklerin de uzun süre bundan şikayet etmemesinden beslendiğine dikkati çekerek, ABD'de, "Yunanlılar, Bulgarlar ve Ermenilerin aksine Türklere ne olduğuna dair doğru düzgün kitap, belgesel, film, TV programı bulunmadığını, Türkiye'ye gittiğinde, insanlardan dedelrinin Balkanlarda, Kafkaslarda öldürüldüğünü duysa da bunu açıkça anlatmadıklarını" ifade etti.

Türklerin de kendilerine karşı bu ön yargıyı görmek istemediğine işaret eden McCarthy, "Artık sadece kanıtları göstermek yetmiyor, biz bunu yıllardır yapıyoruz çünkü bu ön yargı var. Bu konuda bir şey yapmak için, bir defa bu önyargıyı, dar kafalılığı fark etmeniz lazım, ondan sonra bununla savaşmanız lazım" dedi. McCarthy, Türklerin ne yapması gerektiğine yönelik soru üzerine, "Kendinizi ve etrafınızdakini eğitin, okullara, öğrencilere materyaller götürün, Türkiye'nin kültürünü, sanatını, yemeklerini tanıtın. Öğrencilerin karşısına çıkarak aslında kafalarında yarattıkları gibi bir Türk olmadığını gösterin. Kendi hatalarınızı da kabul etmelisiniz, Türkler de insan ve orada bir savaş vardı, ölümler tek taraflı olmadı. Ermeni iddiaları gündeme getirildiğinde çok mütevazi davranmayın, fikirlerinizin sağlam biçimde arkasında durun" diye konuştu.

# SAKİT MƏMMƏDOVA RUSİYA İMPERATOR RƏSSAMLIQ AKADEMİYASININ FƏXRİ AKADEMİKİ ADI VERİLMİŞDİR



Azərbaycanın Əməkdar Rəssamı, YUNESKO-nun Rəssamlar İttifaqının üzvü Sakit Məmmədova Rusiya İmperator Rəssamlıq Akademiyasının fəxri akademiki adı verilmişdir.

S.Məmmədovun bu yüksək ada layiq görülməsi azərbaycanlı rəssamın parlaq və qeyri-adi istedadına müasir dövrün böyük sənət ustaları tərəfindən verilən qiymətdir. Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli Sakit Məmmədova "Fəxri Akademik" diplomunu və medalını martın 5-dən 10-dək Rusiya paytaxtında keçirilmiş "Ənənələr və müasirlik" mövzusunda beşinci, yubiley Beynəlxalq Moskva festivalının təntənəli bağlanış mərasimində təqdim etmişdir.

Moskva Mədəniyyətə dəstək və müasir incəsənətin inkişafı İctimai Fondu tərəfindən YUNESKO-nun dəstəyi ilə təşkil edilmiş bu festival Rusiya paytaxtının mədəni həyatında hər il qeyd edilən ən əlamətdar hadisələrdən biri sayılır. Dünyanın müxtəlif ölkələrini təmsil edən 200-ə yaxın ən yaxşı rəngkar, heykəltəraş, fotoqraf, qrafika və tətbiqi sənət ustası, o cümlədən Fransa, İtaliya, Almaniya, Yunanıstan, ABŞ, Rumıniya, Serbiya, Bolqarıstan və Ukrayna nümayəndələri öz işlərini festivala təqdim etmişlər.

Təsviri sənət ustası Sakit Məmmədov bu nüfuzlu beynəlxalq festivalda iki nominasiyada: "Müasir rəngkarlıqda ənənələrin qorunub saxlanmasına görə" və "Orijinal dəst-xəttə və fərdi üsluba görə" nominasiyalarında qalib gəlmişdir.



Qeyd etmək lazımdır ki, Sakit Məmmədovun bu böyük qələbəsi heç də təsadüfi deyildir. Dünyanın ən yaxşı rəssamlıq məktəbləri və fırça ustaları onun parlaq istedadını yüksək qiymətləndirirlər. Ustad sənətkarın fırçasının məhsulları Azərbaycanda ən bahalı rəsm əsərləri hesab edilir. Dünyanın məşhur hərraclarına çıxarılan, ən sanballı muzeylərdə saxlanılan bu əsərlər bir sıra dövlət başçılarının mənzillərini və məşhur kolleksiyaları bəzəyir. Sakit Məmmədov jurnalistlərin təbriklərini qəbul edərək bildirmişdir ki, bu, təkcə onun qələbəsi deyil, zəngin mədəniyyəti və ənənələri ilə tanınan bütün Azərbaycan xalqının uğurudur.







"Ənənələr və müasirlik" Beynəlxalq Moskva İncəsənət festivalı 2011-ci ildə ilk dəfə YUNESKO-nun himayəsi altında keçirilmişdir. İndiyə qədər bu festival RF-nin YUNESKO işləri üzrə Komissiyasının dəstəyi ilə keçirilirdi. "Ənənələr və müasirlik" festivalının məqsədi ilk növbədə istedadlı gənc rəssamları dəstəkləmək, bədii layihələri inkişaf etdirmək və əlbəttə, mədəni irsi qoruyub saxlamaqdır. Festivalın beynəlxalq münsiflər heyətinin rəhbəri SSRİ, Rusiya və Azərbaycanın Xalq Rəssamı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət Mükafatları laureatı Tahir Salahovdur.

*Asya Hacızadə,*
*AzərTAc*

## "HOLLİVUDUN GƏNC AKTYORLAR MÜKAFATI"NI QAZANMIŞ AZƏRBAYCANLI AKTYORA FƏXRİ FƏRMAN TƏQDİM EDİLMİŞDİR

Xəbər verdiyimiz kimi, bu il "Oskar" mükafatının təqdimatı zamanı "Ən yaxşı xarici" film nominasiyasına iddialı olan Azərbaycanın "Sahə" bədii filmi Hollivuddan əliboş qayıtmamışdır. Martın 13-də ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində keçirilmiş mərasimdə "Sahə" bədii filmində baş rolun ifaçısı Timur Oduşevə "Hollivudun Gənc Aktyorlar Mükafatı" təqdim edilmişdir. O, bu mükafata "Xarici bədii filmdə ən yaxşı aparıcı rol" nominasiyasında fərqləndiyinə görə layiq görülmüşdür.

AzərTAc xəbər verir ki, bu münasibətlə martın 30-da Mədəniyyət və Turizm Nazirliyində gənc aktyor Timur Oduşev və "Sahə" bədii filminin yaradıcı kollektivi ilə görüş keçirilmişdir.

Görüşdə nazir Əbülfəs Qarayev "Hollivudun Gənc Aktyorlar Mükafatı"nın film sənayesində gənc aktyorlara verilən ən yüksək mükafat hesab olunduğunu bildirmişdir. Qeyd etmişdir ki, bu mükafatın azərbaycanlı gənc aktyora verilməsi hamımızı sevindirir. Bu, təkcə T. Oduşevin deyil, bütövlükdə Azərbaycan kinosunun uğurudur. Çalışmalıyıq ki, belə ekran əsərlərinin sayı çox olsun. Belə filmlərin çəkilməsi üçün nazirlik olaraq biz bütün kinostudiyalara kömək etməyə hazırıq.

Son illər ölkəmizdə kino sahəsində baş verən canlanmanı yüksək qiymətləndirən nazir vurğulamışdır ki, qazanılan uğurlar Azərbaycan kinosunun böyük gələcəyindən xəbər verir.

В связи с регулирующей ролью свободного рынка в обществе и государстве, на мой взгляд, важно привести здесь слова всемирно известного американского ученого-экономиста Джона Кеннета Гелбрейта, который еще в 1990 году писал, что "Капитализм не мог бы выжить в своей изначальной или чистой форме, но под нажимом он смог приспособиться".

Далее Джон Кеннет Гелбрейт писал: "...Кто говорит...о возвращении к свободному рынку времен Смита, неправы настолько, что их точка зрения может быть сочтена психическим отклонением клинического характера. Это то явление, которого у нас на Западе нет, которое мы не стали бы терпеть, и которое не смогло бы выжить. Наша жизнь смягчается и защищается правительством; для восточноевропейцев капитализм в его чистом виде был бы так же неприемлем, как он был бы неприемлем для нас".

Таким образом, несмотря на безусловную важность использования рыночных отношений для эффективного функционирования общественно-государственной системы, приведенные выше слова Джона Кеннета Гелбрейта еще раз подтверждают неприемлемость господства свободного рынка времен Адама Смита в современном развитом, или даже развивающемся, обществе и государстве.

Необходимо здесь особо отметить, что в отличие от капитализма, в истинно человеческом обществе и государстве, теории которых были созданы мной ранее, т.е. в обществе и в государстве, служащем интересам каждого человека, должны господствовать не рынок, не деньги, не прибыль, не капитал, а интересы народа.

Управлять же общественно-государственной системой в условиях истинно человеческого общества и государства - должен социально нацеленный интеллект, а не рынок.

Важно обратить здесь особое внимание на то, что ведь нынешний мировой экономический кризис начался в самой развитой и могущественной капиталистической стране - в Соединенных Штатах Америки, что заслуживает специального научного анализа.

Притом, причины мирового экономического кризиса необходимо искать, прежде всего, в "научных" идеях апологетов капитализма, которые, видимо, так зациклились на апологетике капиталистического строя, что капитализм им представляется, чуть ли ни раем, тогда как нередко они даже не понимают при этом истинной сущности капитализма.

Особенно удивителен тот факт, что апологетам капиталистического строя, капитализм кажется даже демократией - властью народа (?!).

Вместе с тем, во-первых, так называемая "демократия" представляет собой явную утопию, ибо "демократия" - власть народа - вообще не осуществима ни в одной общественно-государственной системе, ввиду чего "демократия" - это термин, который может использоваться лишь для демагогического одурманивания народа, путем "убеждения" людей в том, будто бы народ сам является властью в обществе и в государстве, будто бы весь народ управляет обществом и государством (?!).

И, во-вторых, капитализм - это не власть народа, это не так называемая "демократия", а власть денег - власть капитала над народом.

Если же в общественно-государственной системе не имеет место господство денег, господство капитала над народом, то тогда, как неоднократно отмечалось мной и ранее, это уже не капитализм.

## ABŞ STRATEJİ NEFT EHTİYATLARINDAN İSTİFADƏ ETMƏYƏ HAZIRLAŞIR



AzərTAc xəbər verir ki, ABŞ Prezidentinin Administrasiyası ölkənin strateji neft ehtiyatlarından istifadə edilməsi zərurətini nəzərdən keçirir.

Amerika hökumət nümayəndələri bildirmişlər ki, buna səbəb Yaxın Şərq ölkələrindən "qara qızıl" satışının azalması ilə əlaqədar yanacağın qiymətinin artmasıdır.

B.Obama Administrasiyasının rəhbəri, "JP Morgan" şirkətinin sabiq icraçı direktoru Uilyam Deylinin sözlərinə görə, hökumət müxtəlif imkanları nəzərdən keçirir və "müzakirə edilən mövzulardan biri də ehtiyatlar mövzusudur". O qeyd etmişdir ki, bu, müstəsna hallarda baş verir.

Xatırladaq ki, neft ixrac edən bir sıra ölkələrdə iğtişaşlarla əlaqədar, neftin bir barrelinin qiyməti 100 dolları keçmişdir.

Ötən həftə demokrat senatorlardan artıq üçüncüsü – Cey Rokfeller Ağ Evə müraciətlə ölkənin strateji ehtiyatlarının istifadəyə verilməsini tələb etmişdir.

Senator Prezidentə ünvanladığı məktubunda qeyd etmişdir ki, həcmi 700 milyon barreldən çox olan dövlət ehtiyatlarından məhdud miqdarda istifadə edilməsi ölkənin milli təhlükəsizliyini qorumağa, yaxınlaşmaqda olan yanacaq qıtlığının qarşısını almağa və ya onu azaltmağa imkan verər.

## QAZAXISTAN SENATININ SƏDRİ BMT-NİN CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU TƏYİN OLUNMUŞDUR



Qazaxıstan Senatının sədri Qasımcomərd Tokayev BMT-nin Cenevrədəki bölməsinin baş direktoru təyin edilmişdir.

Bununla bağlı Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin BMT-nin baş katibi Pan Gi Mun ilə telefon danışığı da olmuşdur. Baş katib Q.Tokayevin BMT sistemində rəhbər vəzifəyə təyin edilməsini Qazaxıstanın beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə verdiyi töhfə, nüvə silahının yayılmaması istiqamətində təşəbbüsləri, ölkədə sosial-iqtisadi inkişaf və xarici siyasət sahəsindəki uğurları ilə əlaqəli olduğunu bildirmişdir.

Söhbət zamanı, həmçinin Mərkəzi Asiya və Yaxın Şərqdə vəziyyət, eləcə də aktual beynəlxalq problemlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Pan Gi Mun 2010-cu ildə ATƏT-in sədri kimi böyük işlər gördüyünə və bu qurumun Astanada Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə Qazaxıstan Prezidentinə minnətdarlıq etmişdir.

## GÜRCÜSTANDAN YAPONİYAYA 1 MİLYON DOLLAR YARDIM



Gürcüstan Yaponiyada zəlzələnin nəticələrinin aradan qaldırılmasına yardım məqsədilə 1 milyon dollar ayırıb. APA-nın Gürcüstan bürosunun məlumatına görə, bu barədə Gürcüstan xarici işlər nazirinin müavini David Çalaqaniya açıqlama verib. Zəlzələdən zərər çəkmişlərə kömək üçün ayrılan bu məbləğ Beynəlxalq Qırmızı Xaç Komitəsinin Yaponiya ofisinin vasitəçiliyi ilə müvafiq qurumlara çatdırılacaq.

# YAPONİYA FƏLAKƏTİ VƏ YA YAPON XALQININ FACİƏNİ QARŞILAMAQ VƏ ONU ARADAN QALDIRMAQ DƏRSİ

Artıq 20 gündür ki, bütün dünyanın diqqəti Yaponiyaya yönəlmişdir. Martın 11-də Yaponiya tarixində baş vermiş ən güclü zəlzələ və onun ardınca yaranmış nəhəng sunami ölkəyə indiyə qədər görünməmiş ziyan vurmuşdur. Ölkə iqtisadiyyatına dəyən zərər, onun aradan qaldırılması, müəssisələrin, yolların və digər infrastrukturun bərpası üçün lazım olan vəsait hələ bundan sonra hesablanacaq və şübhəsiz ki, astronomik rəqəmlərlə ifadə olunacaqdır. Qeyd edək ki, 1995-ci il yanvarın 17-də Honsü adasında 7,5 bal gücündə baş vermiş zəlzələ 6300 insanın tələfatı ilə nəticələnmiş, ölkəyə ümumilikdə 130 milyard dollar zərər dəymişdi.

Yapon xalqına müraciətində Baş nazir Naoto Kan bildirmişdir ki, ölkə II Dünya müharibəsindən bəri ən dəhşətli böhran dövrünü yaşayır və o, vətəndaşları "milli fəlakətə qarşı birliyə" çağırmışdır.

Demək olar ki, belə nəhəng fəlakət bir tərəfdən müasir təsərrüfat sisteminin və infrastrukturun zəifliyini nümayiş etdirdi. Lakin, eyni zamanda, vurğulamaq lazımdır ki, bu, Yaponiya dövlətinin, cəmiyyətinin və milli iqtisadiyyatın möhkəmliyini və çevikliyini göstərdi.

Gəlin unutmayaq ki, təbii fəlakət Yer kürəsinin əhalinin ən sıx yerləşdiyi ərazisində - Honsü adasında baş vermişdir. Burada 230 min kvadratkilometr ərazidə 100 milyon insan yaşayır, 1 kvadratkilometr torpaq sahəsinə isə 435 nəfər düşür.

Öz gücünə görə tayı-bərabəri olmayan zəlzələ dünyanın Tokio və Osaka kimi nəhəng meqapolislərində heç bir dağıntı yarada bilmədi, nəqliyyat və enerji kollapsları baş vermədi, nəhayət heç bir çaxnaşma, təlaş yaşanmadı. Göydələnlər bu zərbələrə sinə gərdi, yeraltı təkanların və sunaminin yaratdığı faciəyə baxmayaraq, yaponlar soyuqqanlılıqlarını itirmədilər, mütəşəkkil formada öz evlərini və ofislərini tərk edərək daha təhlükəsiz yerlərdə toplaşdılar.

Fövqəladə xidmət və ordu vaxtında zərərçəkənlərin köməyinə gələrək, bacardığı qədər onlara yardım etdi. Dərhal faciə yerinə baş çəkən Baş nazir, hakimiyyətin gücünün nümayişindən çox, insanların dərdinə səmimi şərik çıxması ilə diqqəti cəlb etdi. Gəlin belə bir həqiqəti etiraf edək ki, bu gücdə faciə dünyanın hər hansı ölkəsində baş versə idi, həlak olanların sayı qat-qat çox olardı. Məsələn, ötən ilin yanvarında Haitidə daha az – 5,9 və 7 bal gücündə baş vermiş zəlzələlər zamanı 220 min, 2004-cü ilin dekabrında Cənub-Şərqi Asiyadakı sunami zamanı ümumilikdə 230 min insan tələf olmuşdu. 2005-cu ildə Pakistanda, 2008-ci ildə Çində baş vermiş təbii fəlakətlər zamanı müvafiq qaydada 76 min və 87 min insan həlak olmuş, hər iki ölkənin iqtisadiyyatına milyardlarla dollar zərər dəymişdi. Hətta 2005-ci ilin avqustunda ABŞ-dakı "Katrina" qasırğasının vurduğu ziyanın aradan qaldırılması zamanı zərərçəkənlərə yardım göstərilməsi və qayda-qanun yaradılmasının təşkilini də Yaponiya ilə müqayisə etsək, vəziyyət ikincinin xeyrinə olacaqdır. Fikrimizcə, digər ölkələrlə müqayisədə Yaponiyanın daha az zərər çəkməsi bu xalqın milli xüsusiyyətlərindən irəli gəlir. Yaponlar hər zaman, necə deyərlər "vulkan üzərində yaşadıqlarını" yaxşı xatırlayırlar və buna görə də öz nəqliyyat və tikinti texnologiyalarını daim təkmilləşdirərək belə təbii fəlakətlərdən daha az ziyanla çıxmağa nail olurlar. Təsadüfi deyil ki, məhz bunun nəticəsində bünövrəsi 7,5 bal gücündə zəlzələyə hesablanmış müasir göydələnlər davam gətirdiyi halda, köhnə evlər kiçik zərbələrə belə dözə bilməyərək dağıldı.

Bundan başqa, bütün yaponlar hər il sentyabrın 1-də "Kanto günü"ndə fövqəladə hallarda hansı hərəkətləri yerinə yetirməli olduqlarını məşq edir, öz bacarıq və vərdişlərini möhkəmləndirirlər. 1923-cü ilin həmin günündə baş vermiş zəlzələ nəticəsində 143 min insan həlak olmuş və o vaxtdan başlayaraq bu gün dediyimiz qaydada qeyd edilir. Əgər buraya fövqəladə hallar zamanı yaponların ənənəvi qapalılıqdan uzaqlaşmasını, daxili intizamının, məsuliyyətliliyinin və heyranedici həmrəyliyinin qüvvətlənməsini əlavə etsək, hər şey aydın olar. Məhz bütün bunlar xalqı sıx birləşdirir, əsl vətənpərvər qüvvəyə çevirir, çətin saatlarda fədakarcasına çalışaraq dağıntıları aradan qaldırmağa imkan yaradır.

3 milyondan çox insanın həlak olduğu 1923-cü ilin dəhşətli zəlzələsindən, II Dünya müharibəsindən sonra da belə olmuşdur, indi də belə olacaqdır. Məsələn, II Dünya müharibəsindən 3 il sonra xaricdən cüzi yardım alan Yaponiya 1949-1951-ci illər ərzində sənayenin istehsalını 2 dəfə artırmağa nail oldu.

Zənnimizcə, Yaponiyada baş vermiş faciə bir daha təsdiq etdi ki, qabaqcıl ölkənin inkişaf etməkdə olan ölkələrdən fərqi yalnız ÜDM-nin həcmində, yeni texnologiyaların tətbiqində, adambaşına düşən gəlirdə yox, insan həyatına verilən qiymətdə, dövlətin və cəmiyyətin onun qorunması üçün heç bir vəsait sərfindən çəkinməməsindədir.

Bununla yanaşı, Yaponiya hökumətinin Atom Elektrik Stansiyalarında baş verənlərlə bağlı nümayiş etdirdiyi informasiya aşkarlığı da mühüm rol oynayır.

***Vüqar Ağayev,***
***AzərTAc-ın müxbiri***















## RUSİYA ƏHALİSİ 2,2 MİLYON NƏFƏR AZALIB

2010-cu il oktyabrın 14-dən 25-dək keçirilmiş ümumrusiya siyahıyaalmasında Rusiyada daimi yaşayan 142 milyon 905,2 min nəfər qeydə alınmışdır. 2002-ci ilin siyahıyaalması ilə müqayisədə Rusiya əhalisinin sayı 2,2 milyon nəfər və ya 1,6 faiz azalmışdır.

AzərTAc xəbər verir ki, siyahıyaalmanın ilkin yekunları "Rossiyskaya qazeta"da dərc edilmişdir.

Rusiya Dövlət Statistika Komitəsinin məlumatına görə, əhalinin sayının azalmasına səbəb son iki siyahıyaalma arasındakı müddətdə miqrasiyanın artması fonunda əhalinin təbii azalması (ölənlərin sayının doğulanların sayından çox olması) ilə əlaqədardır.

Əvvəlki kimi yenə də əhalinin ən çox məskunlaşdığı federal dairələr Mərkəz, Volqaboyu və Sibir federal dairələridir. Bu bölgələrin ərazisində ölkə əhalisinin 61 faizdən çoxu yaşayır. 2002-ci ilin siyahıyaalması ilə müqayisədə RF-nin 63 subyektində əhalinin sayı azalmış, 20 subyektdə isə artmışdır.

Rusiya urbanizasiyanın yüksək səviyyədə olduğu ölkə kimi qalmaqdadır. 2002-ci ildə şəhər əhalisinin sayı 73,3 faiz təşkil etdiyi halda 2010-cu ildə bu göstərici 73,7 faizə bərabər olmuşdur.

Siyahıyaalmanın ilkin yekunlarına görə, Rusiya əhalisi üçün səciyyəvi hal – qadınların sayının kişilərdən xeyli çox olması tendensiyası davam edir. 2002-ci ildə bu fərq 9 milyon 956 min nəfər olduğu halda, 2010-cu ildə 10 milyon 495 min nəfərə çatmışdır. Siyahıyaalma prosesində 66 milyon 205 min kişi və 76 milyon 700 min qadın qeydə alınmışdır.

Kişilərin və qadınların say nisbətinin bir qədər pisləşməsi kişilər arasında vaxtsız ölüm göstəricisinin yüksək olması ilə əlaqədardır.

Siyahıyaalmanın son nəticələri 2013-cü ildə dərc ediləcəkdir. Bu sənəd 11 cilddən ibarət olacaqdır.

## TÜRKİYƏ MƏHKƏMƏSİ ORXAN PAMUKU 4 MİN DOLLAR CƏRİMƏLƏDİ



Nobel mükafatçısı, məşhur türk yazıçısı Orxan Pamuk 4 min dollar cərimə olunub.

Türkiyə mətbuatı xəbər verir ki, Türkiyə məhkəməsi Orxan Pamuku türk xalqına qarşı ittiham irəli sürdüyünə və onların hüquqlarını pozduğuna görə cərimələyib.

Orxan Pamuka qarşı 2005-ci ildə millətçilər tərəfindən ittiham irəli sürülüb. Buna səbəb Orxan Pamukun İsveçrə qəzetinə müsahibəsində Türkiyədə 1 milyon erməni və 30 000 kürdün öldürüldüyünü iddia etməsi olub.



## HİNDİSTANIN ƏHALİSİ 181 MİLYON NƏFƏR ARTIB

Son 10 ildə Hindistanın əhalisi 181 milyon nəfər artaraq, 1,21 milyarda çatıb. "Associated Press"in məlumatına görə, bu rəqəm növbəti siyahıyaalmadan sonra bəlli olub. Hindistan əhalisi dünya əhalisinin 17%-ni təşkil edir. Ötən onillikdə ölkədə əhalinin artım tempi azalaraq, 17,6% olub. Bundan əvvəlki onillikdə isə artım tempi 21,5% idi.

Hazırda Hindistan əhalisinin sayına görə Çindən sonra ikincidir. Çinin əhalisi 1,34 milyard nəfərdir. Lakin ekspertlər gələcəkdə Hindistanın bu sahədə Çini geridə qoyacağını bildirirlər.

# "DÜNYA" MƏKTƏBİ DƏVƏT EDİR

**IX sinif şagirdlərinin nəzərinə!**

*Xəzər Universiteti, "Dünya" İB məktəbi 2011-2012 - ci tədris ili üçün Diplom Proqramı üzrə (xarici universitetlərə hazırlıq) Beynəlxalq Bakalavr məktəbinə qəbul elan edir*

***Məktəbin məqsədi:***

Ali təhsilini xaricdə davam etdirmək istəyən IX sinif şagirdləri Xəzər Universiteti "Dünya" İB məktəbində Diplom Proqramı üzrə 2 illik təhsili başa vurduqdan sonra birbaşa xaricdə təhsil almaq hüququ əldə edirlər. Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Ən yüksək nəticə əldə edən şagird Xəzər Universitetinin və "Dünya" məktəbinin təsisçisi professor H.İsaxanlı tərəfindən təsis edilmiş bursu (təhsil haqqı) almaq hüququ qazanacaq.

***Müsabiqədə kimlər iştirak edə bilər:***

IX sinfi bitirmiş Azərbaycan və xarici ölkə vətəndaşları

***İB Məktəbi Diplom Proqramının müddəti:***

Məktəb 2 il davam edir və Azərbaycan ədəbiyyatından başqa bütün fənlər ingilis dilində tədris olunur. Bu məktəbi uğurla başa vuran şagirdlər beynəlxalq İB diplomu ilə bərabər Azərbaycan orta təhsil attestatını da alacaqlar. Onlar dünyanın hansı ölkəsində istəsələr, təhsillərini davam etdirə biləcəklər.

***Məktəbdə oxumaq arzusunda olan şagirdlər aşağıdakı ünvana müraciət edə bilərlər:***

*Əlaqə*

Ünvan: Bakı şəhəri, AZ 1102, Alatava 2
Tel/faks: (+994 12) 431 26 38
Mobil: (+994 55) 607 32 21
E-mail: renamusayeva@yahoo.com
Web: www.khazar.org
Əlaqələndirici şəxs: Rəna Həsənova
Məktəbdə oxumaq üçün müraciət qaydası və müddəti:
**Qeydiyyat 30.04.2011-dək davam edəcək.**

# МУСЛИМ МАГОМАЕВ: «ПРЕДПОЧИТАЮ ТОЧКУ СТАВИТЬ САМ. НО НЕ ХОЧУ ГРОМКО ХЛОПАТЬ ДВЕРЬМИ»



**МУСЛИМ МАГОМАЕВ**

**Великий азербайджанский певец, народный артист СССР, лауреат международных фестивалей. 1942 – 2008 гг.**

**1news.az** *представляет remake культовой рубрики журнала «Esquire» - «Правила жизни». Сегодня мы публикуем «Правила жизни» Муслима Магомаева. «Правила жизни» записаны на основе многочисленных интервью уважаемого Муслима Магометовича различным изданиям, опубликованных на его* официальном сайте.

*Все цитаты сохранены согласно оригиналам.*

**На три концерта я никогда не соглашался**, да не только теперь, но и в прежние времена не гнался за количеством концертов. Старался поберечь не только себя, но и зрителя. Ведь если артист поставил концертную деятельность на поток, то о каком творчестве можно рассуждать всерьез?

**У меня нет планов**, нет даже распорядка дня. Утром не знаю, что буду делать вечером. У меня непредсказуемый характер: я даже концерты часто отменял.

**Я мог бы быть** художником, композитором, пианистом. Почему не стал? Наверное, из-за своей восточной лени.

**Я ведь всю жизнь жил самотеком** и никогда всерьез не думал о завтрашнем дне.

**Уважаю людей, которые** могут сесть за фортепиано и заниматься по 8 часов, как Святослав Рихтер. Он мог всю ночь работать над ноткой. А я репетировал только для оркестра. Приходил, брал ноты и пел как бог на душу положит. Эстрадный певец должен спеть все, что у него на сердце. А голос - это последнее.

**Я и сам готовить люблю**, на кухне импровизирую так же, как в жизни, как в музыке. А еще я обои могу клеить, плинтусы забивать...

**Мне не нравится**, когда меня узнают. Я стеснительный человек.

**Главное** - не действовать друг другу на нервы. Я никогда не лезу с вопросами, куда идет моя жена. Захочет - сама скажет.

**Кроме водки, я ничего не пью**, вино меня не берет. Приехал я как-то в Тбилиси, а грузины злятся: на столе столько вина, а мне скучно. Я им говорю: «Хотите, чтобы я веселился с вами? Несите водку!»

**Петь - это не работа**, это для души. Если бы прожить все заново, я ничего не менял бы. Только не курил бы.

**Революцию я ждал**. Всю жизнь был антисоветчиком, мечтал о том, чтобы наша жизнь изменилась. Чтобы мы перестали кланяться чиновникам, чтобы могли петь то, что нам хотелось, а не то, что утверждали нам партийные комиссии.

**Как-то очень резко всё произошло** - наступление нашего своеобразного капитализма. Это как после музыки Моцарта взять и врезать Шнитке. Разница будет такой же шокирующей. Не хочу определять, какая жизнь - та или нынешняя - была Моцартом, а какая Шнитке. Я просто говорю о контрастах, о том, что менять всё надо было постепенно, - народ оказался к этому не готов.



**От фамильярности никогда не страдал.** Я вообще очень трудно сближаюсь с людьми. Поэтому практически не посещаю тусовок, где собирается много народу. Считаю: сейчас не моё время. И очень удивляюсь своим ровесникам, которые тусуются с молодёжью. Я даже это слово не люблю - тусовка.



**Пласидо Доминго в одном из интервью** сказал: «Надо уходить, не дожидаясь того момента, когда услышишь: «Как? Он ещё поёт? Да он сам себя не уважает!» Эти слова я принял как руководство к действию.

**Я не жилец за границей.** На Западе совсем другие отношения между людьми. Только, может, Италия близка нам - они и внешне, и по темпераменту похожи на азербайджанцев. А французы, англичане, американцы: у них в жизни только бизнес, бизнес, бизнес - и больше ничего.

**Сиюминутная слава - это,** конечно, приятно. И когда артисты говорят: «Мне всё равно, любят меня или не любят!» - врут они. Причём нагло. Каждому артисту приятно, когда ему аплодируют, когда его ждут у входа, просят автографы. Правда, когда машину поднимают - это уж чересчур.

**Все мы на этой земле - временщики.** За свои дела каждый из нас будет отвечать там, на небесах. А земная мишура - она уйдёт.

**Достаток для меня не самое главное.** Никогда в жизни не копил денег - всё тратил мгновенно. Есть у меня деньги - я должен гульнуть.

**Никогда** не думаю о будущем в печальных тонах.

**Нельзя людям запрещать** высказывать свои искренние, сердечные чувства.

**Наверное, если бы Бог не дал мне этот дар** - в моем, уже немолодом возрасте суметь освоить компьютер, - я страдал бы от безделья. Так как желание петь, играть и рисовать приходит, увы, не каждый день.

**Я никогда не считал себя Великим,** как это делают сейчас многие "звезды и звездочки". Я всегда думал о той высочайшей вершине, до которой мне никогда не добраться. Моими учителями были Карузо, Ланца, Гобби... Я понимал, что мне до них никогда не добраться, как до звезд на небе. Поэтому я всегда считал себя лишь ищущим музыкантом.

**Голос у меня и вправду** до сих пор здоров, но лучше уйти раньше, чем опоздать! Ведь я всегда пел о любви, а теперь переделывать свой репертуар на "песни старца", не хочу.

**Человек так устроен, если видит гадость** и не верит ей, он все равно должен дочитать до конца.

**Телевизор** практически не смотрю.

**Я тоже эмоционален**, но спорить на политические темы не хочу.

**Когда я даю слово**, то это навсегда.

**Уходил из оперы** дважды. В первый раз ушел - но стали говорить, что, мол, Магомаеву трудно, он уже не может петь в опере. Я разозлился и после десятилетней паузы спел. Доказал самому себе, что могу. И ушел навсегда.

**Классика требует самодисциплины**, каждодневных занятий. А я не люблю тренаж и люблю свободу.

**Молодежь уже не хочет** одиноко стоящего человека, а хочет зрелища, попрыгунчиков, балетных девочек и чтобы все было красочно. И мне нравятся шоу Киркорова и Леонтьева. На других шоу я был, но не хочу о них говорить - они не по мне.

**Мне предлагали сценарии**, но какие-то дурацкие.



**Сейчас любая сцена** продается: хоть выпивай там с друзьями, но плати.

**Я по складу патриот** и среди иностранцев бы не мог: у них разговоры только о бизнесе.

**Предпочитаю** точку ставить сам. Но не хочу громко хлопать дверьми.

**Когда-то мне Утесов говорил**: я тебя, Мус-





лим, люблю, но согласись, что лучше, чем "Легко на сердце от песни веселой", не бывает. И я понял, что он считает так: ну Магомаев, ну успех, ну поклонники несут автомашину на руках, а все равно лучше меня никто не поет. И был прав - для своего времени. Точно так же для меня мое время было лучшим. Но оно прошло, и сейчас время Витаса.

**Не понимаю**, почему женщины рвутся за руль.

**Азербайджан - отец**, Россия - мать. А я, как Фигаро: и тут и там.

**Я совершенно не осуждаю** публику. Сейчас другая музыка, другое абсолютно все. И нет гарантии, что дальше на сцене не появится что-то вообще непонятное, несуразное, которое будет нравиться массам. Поэтому никогда нельзя говорить: «В наше время было хорошо, а сейчас плохо». Потому что может быть еще хуже.

**Ходить на телевидение** для меня было большой проблемой. Поэтому и записей мало.

**Я по натуре**, простите за сравнение, соловей: хочу – пою, не хочу – не пою. Раньше мы с Тамарой ездили с концертами, зарабатывали деньги. Иногда по два и даже по три концерта в день. Для меня это было каторгой. Просто так сложилось. Я всегда говорю, что я не Кобзон.

**У меня никакой пенсии в России** нет. Да и прописка появилась не так давно. Я всю жизнь прожил в Москве как бакинец, женатый на москвичке.

**После того как я женился** на Тамаре, я стал более скромно себя вести.

**Я никогда не говорил, что я монах.** На моем пути было достаточно прекрасных женщин... Но все это только до Тамары Ильиничны...

**Мужчина должен быть главным** в семье - хоть на Востоке, хоть на Западе. Но не настолько главным, чтобы командовать женой, заставляя ее шагать маршем. Как умный глава, ты должен помогать жене, заботиться, оберегать, ухаживать.

**Обожал я** по лестницам падать. В «Тоске» я все время с лестницы летал двадцать ступенек вниз. Специально заказывал такие декорации, чтобы кататься. На публику огромное впечатление производил. Вот эта шалость детская во мне всегда была.

**Вытащить на сцену целый оркестр** - это сейчас может себе позволить лишь спонсор Баскова или Киркоров.

**Пусть уж лучше меня запомнят** по записям, пластинкам тех лет. Да, сейчас спою, несомненно, более умудренно, глубоко. Но голоса такого, как в двадцать пять лет, у меня уже, конечно, не будет.

**Помню, когда меня приглашали** в программу "Это было, было...", где крутили мои старые записи, то я отказался от съемок: "Почему - было? Вот он я - есть, я живу!" Как можно так говорить. Ведь ни Фрэнк Синатра, ни Лайза Минелли никогда не участвовали в передачах типа "Это было". Они просто стали при жизни классиками эстрады.

**Компьютер - это моя страсть** и моя слабость. И не только Интернет, а еще самые разнообразные программы. Например, с помощью фотошопа я "меняю имидж" многим своим знакомым.

**У меня все были талантливые**, и дед, и отец, и мать. Что же я бездарностью должен был вырасти?

**Она возвращалась всегда неожиданно**, как снег на голову. Могла в 3 часа ночи появиться. Мама - можно сказать, ярко выраженная актриса и в жизни, и на сцене. Всегда была несколько экстравагантна. Насколько я помню, за время своей театральной деятельности она сменила городов пять-шесть. Есть такие артисты, которые не хотят в одном и том же театре работать. По натуре уже гастролеры. Вот такая у меня была мама.

*1news.az*

# SOSİAL ŞƏBƏKƏLƏR AZƏRBAYCANDA AİLƏ MODELİNƏ CİDDİ ZƏRBƏ VURUR

İnternet həyatımızın ayrılmaz hissəsinə çevrilib. Kompüterdən istifadə edən insanların ayrı-ayrı sosial şəbəkələrdə "dövr etməsi", dostluq və tanışlıqlar şəbəkəsi isə artıq gündəlik normaya çevrilməkdədir. Amma bəlkə heç birimiz təsəvvür eləmirik ki, ilk baxışdan çox cəlbedici, dostlarla bol görünən bu virtual dünya real həyatımızda müxtəlif problemlərə yol açır.

***Azərbaycanda hər 27 nəfərdən biri "Facebook" istifadəçisidir***

"Sosial şəbəkə" termini elmi leksikona 1954-cü ildə ingilis sosioloq Barns tərəfindən daxil edilib. Tərifə görə, sosial şəbəkə sosial obyektlərdən (birlik, sosial qrup, insan) ibarət olan qovşaqları birləşdirən sosial strukturdur. İnternetdə sosial şəbəkə interaktiv, çoxlu istifadəçisi olan saytdır. İlk sosial şəbəkənin yaranması ötən əsrin 90-cı illərinin ortalarına təsadüf edir. Bu, "odnoklassniki.ru"-nun sələfi hesab edilən "classmates.com" idi. 1999-cu ildə yaradılan "Livejournal", 2003-cü ildə meydana çıxan "MySpace" də öz növbəsində xeyli populyarlıq qazandı. Hazırda sosial şəbəkələr içərisində ən populyarı 2004-cü ildə yaradılmış "Facebook" hesab edilir. 2006-cı ildə Rusiyada yaradılan "odnoklassniki" və "V kontakte" də xeyli populyardır.

2011-ci il fevralın 1-nə olan məlumata əsasən, bu ilin yanvar ayı ərzində "Facebook" sosial şəbəkəsində qeydə alınmış Azərbaycan istifadəçilərinin sayı 12,4% və ya 38,2 min nəfər artaraq, 312 720 nəfərə çatıb. Azərbaycan əhalisinin 3,7%-i və ölkədə mövcud internet istifadəçilərinin 8,4%-i "Facebook"dan yararlanır. Bu isə o deməkdir ki, Azərbaycan vətəndaşlarının hər 27 nəfərindən biri "Facebook" istifadəçisidir. Sözügedən şəbəkədən Azərbaycanda istifadə edənlərin 50%-i 18-24 yaş qrupuna, 26%-i 25-34 yaş qrupuna, 9%-i 16-17 yaş qrupuna, 6%-i 13-15 və 35-44 yaş qruplarına, 2%-i 45-54 yaş qrupuna, 1%-i isə 56-64 və 65-dən yuxarı yaş qruplarına aiddir. Azərbaycanda "Facebook"dan istifadə edənlərin 63%-i kişilərdir. Hazırda Azərbaycan "Facebook" şəbəkəsində istifadəçilərin sayına görə Latviya, Qazaxıstan, Belarus, Moldova, Ermənistan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistanı qabaqlayaraq 94-cü yeri tutur. Rusiya bu siyahıda 3 663 900 istifadəçi ilə 29-cu yerdə qərarlaşıb. Qeyd edək ki, "Facebook" sosial şəbəkəsinin istifadəçilərinin ümumi sayı 618 517 020-yə çatıb.

***Sosial şəbəkələrdən istifadə ailədaxili münasibətlərə ləkə gətirir***

**Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev** APA-ya bildirib ki, sosial şəbəkələrin meydana gəlməsi XXI əsrin ən böyük inqilablarından biri olmaqla yanaşı, bir sıra problemlər də yaradıb: "Təkcə "Facebook" sosial şəbəkəsinin 500 milyon-dan artıq "sakini" var. Elə bil yeni bir internet dünya, yeni bir internet ölkə yaranıb, insanlar da bu ölkənin vətəndaşlarına çevrilib. Bu "vətəndaşlar" bir-birinə qarşı istənilən münasibəti göstərə bilərlər. Amma bu, real münasibətlərdən fərqli olaraq, bir qədər hüquqdan kənar münasibətlərdir. Çünki hər bir ölkədə sosial münasibətlər qanun əsasında qurulur, əgər onlar bir-birinə qarşı hansısa təhqirə yol verirlərsə, qanun işə düşür, Konstitusiya öz sözünü deyir. Amma internet üzərində virtual sosial şəbəkələrin meydana gəlməsi artıq qanundan kənar mühit yaradır. Sosial şəbəkələrin bu gün yaratdığı ən böyük problem budur. Belə qanundan kənar mühit başqa dinləri, başqa mədəniyyətləri, başqa mental dəyərləri daşıyanları birdən-birə sosial mühitə gətirir. İkinci ən böyük problem ondan ibarətdir ki, sosial şəbəkələrin qanundan kənar mahiyyəti insanların içində olan ədəbsizlik, mədəniyyətsizlik və tərbiyəsizliyi üzə çıxarır. Birdən-birə hər bir vətəndaş ailənin üzvü olmaqla, həmin qanuni tələblərdən və mental dəyərlərdən uzaqlaşır, onun daxilində olan gizli, ictimai qınaqdan kənarda olan "mən"i üzə çıxır. O "mən" ictimai mühitdən kənar, çox təhlükəli "mən"dir. O "mən"in içərisində tərbiyəsizlik, əxlaqsızlıq var. İnsanlar ata-anasının, müəlliminin, qonşusunun yanında demədiyini orda demək imkanı əldə edir. Və düşünür ki, bu, qanundan kənardır, bunu heç kim bilmir, düşünür ki, burda özünü gizlədə, anonimliyini təmin edə bilər. Həmin insan abstrakt olan bir azadlıq mühitinə düşür. Amma o azadlıq təhlükəli azadlıqdır. Ona görə ki, burda tənzimləyici mexanizmlər yoxdur. Çünki XXI əsrin internetinin yeni dəyərləri hələ formalaşmayıb".

R. Əliquliyevin sözlərinə görə, belə hüquqdan kənar mühit ziyanlı bir "kislota" kimi ailə münasibətlərində özünü göstərir: "Ənənəvi, mental dəyərlərə söykənən ailə münasibətlərinə sosial şəbəkələrin gəlməsi ailənin daxilində olan münasibətlərə ləkə gətirir. Baxırsan ki, qadın sosial şəbəkədə olur, özünün marağında olan insanları tapır, ər burda öz marağında olan insanları tapır, qız burda tapır, oğul orda tapır. Ailə məkan kimi qalır, amma daxilində olan dəyərlərə turşu düşdüyü üçün onları dağıtmağa başlayır. Ailə daxilində kiçikdən böyüyə, böyükdən kiçiyə olan münasibətlər istiqamətini dəyişir. Ailə üzvlərinin hər biri sosial şəbəkələrin subyektlərinə çevrilir, bununla da ailənin daxilində olan struktur dağılmağa başlayır. Ailə daha əvvəlki ailə olmur, milli mənəvi dəyərlərin

daşıyıcısı olmaq funksiyasını get-gedə itirməyə başlayır. Ailədə olan hər bir insan artıq özünü azad subyekt kimi hiss edir. Bu da, əlbəttə ki, mental dəyərlərə, ölkənin böyük qanunlarına ziddir. Ailə institutu yeni bir forma alır. Sosial şəbəkələrin gələcəkdə cəmiyyətə vəd etdiyi münasibətlər bundan ibarətdir".

### *Sosial şəbəkə boşanmaya da səbəb olur*

**Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizova** APA-ya bildirib ki, rəhbərlik etdiyi quruma sosial şəbəkələrdə yaranmış problemlərlə əlaqədar müraciət edən şəxslərin dəqiq statistikası aparılmasa da, müraciət edənlər var. Bəzən internet və sosial şəbəkələrdə aktiv iştirak etmə boşanmaya da səbəb olub. Yaxud da bu, ailədə münaqişə yaradıb. Bəzən şəbəkələrdə iştirak ailə zorakılığının bir elementi də ola bilər: "Mərkəzə bəzən kişilər müraciət edərək bildiriblər ki, həyat yoldaşı ona xəyanət edib. Söhbət edərkən məlum olur ki, xanım hansısa sosial şəbəkədə olub, köhnə dostları, sinif yoldaşları ilə danışıb. Evin kişisi bunu virtual xəyanət sayıb. Həyat yoldaşının internetdə kiminləsə yazışmasını xəyanətə bir addım qəbul edib. Bəzən isə əksinə olur. Xanımlar köhnə dostları ilə sosial şəbəkələrdə yazışan həyat yoldaşlarının hərəkətini xəyanət kimi qəbul edirlər. Bütün bunlar əvvəlcə xırda münaqişəyə, sonra isə boşanmaya səbəb olur.

Maraqlıdır ki, müraciət edənlərin arasında evdar qadınlar deyil, ali təhsilli şəxslər də var. Bizə bir həkim qadın müraciət etmişdi, onun həyat yoldaşı kütləvi informasiya vasitələrinin birində çalışır. O, həyat yoldaşına çoxlu məktublar yazıldığını görüb və bunu düzgün qəbul etməyib, son nəticədə də onlar boşandılar. Bəzən tənhalığa görə bizə müraciət edən insanlara hansısa saytlarda özlərinə dost tapmağı məsləhət görürük. Amma fikir verirəm ki, son vaxtlar gənclərin arasında sosial şəbəkələrdə çərçivələrə əməl etməmək, özlərini apara bilməmək tendensiyaları artıb. Bəzən mədəniyyətsizlik, hətta tərbiyəsizlik belə edirlər. Bu, xoşagəlməz hallara gətirib çıxarır. Mən də sosial şəbəkənin üzvüyəm, özümə qarşı orada təhqir, söyüş də olub. Hətta elə vəziyyət yaranıb ki, o sosial şəbəkədən çıxmalı olmuşam".

M. Əzizova deyib ki, adətən sosial şəbəkələr üzündən problemi yaranan şəxsləri psixoloq yanına göndəririlər: "Əgər insanda qısqanma varsa, o baxmayacaq ki, bu, sosial şəbəkədə, yoxsa real həyatda olub. Bəzən həyat yoldaşını həddsiz qısqanan qadınlara təklif edirik ki, müvəqqəti olsa da, sosial şəbəkədən çıxsınlar. Ailədə vəziyyət düzələndən sonra isə yenidən sosial şəbəkəyə qayıda bilərlər. Məncə, elə sosial şəbəkələr var ki, həqiqətən də problem yarada bilər. Elə insanlar var ki, sosial şəbəkələrdən tanışlıq, pornoqrafik şəkilləri və saytları bir-birinə ötürmək üçün istifadə edilər. Məhz sosial şəbəkələrdən düzgün istifadə edilmədiyinə görə biz təklif edirik ki, onlar bu şəbəkələrdən uzaqlaşsınlar. Ailədə iki insan bir-birinə xoş sözlər deyib ünsiyyət yaratmaqdansa, real həyatı internet həyatına dəyişir. Bu da onların bir-birindən uzaqlaşmasına və sonda boşanmasına səbəb olur. İnternetdən uzaqlaşmaq bəzən ailədə barış yarada bilər".

M. Əzizovanın sözlərinə görə, problemlərdən çıxış yolu kimi təbliğatı gücləndirmək lazımdır: "Hər bir insan bilməlidir ki, sosial şəbəkədən istəyi nədir. Bu, narkotik kimi bir şeydir. Bəzən insan bu saytlara o dərəcə bağlanır ki, bir gün bu sayta girməsə, özünü çox narahat hiss edir. İnsanları öyrətmək lazımdır ki, sosial şəbəkələrlə necə davranmaq lazımdır. Hər bir insan bilməlidir ki, internetdə nə qədər oturmalıdır. Şəbəkələrin müsbət və mənfi tərəfləri tam açıqlanmalıdır. Əgər bu, ailədə problem yaradırsa, buna əvvəlcədən fikir vermək lazımdır. Əgər həyat yoldaşı internetdə gündən-günə daha çox vaxt keçirirsə, deməli, bu, artıq qadın və kişi üçün bir şüuraltı zəng olmalıdır. Buna qarşı mübarizə aparmaq, tez-tez qonaq getmək, ünsiyyəti artırmaq, havaya çıxmaq lazımdır. Hələlik sosial şəbəkələrdə çox vaxt keçirmə kütləvi təhlükəyə çevrilməyib. Sosial şəbəkələrdə oturmaqdansa, tanışlıq və porno saytlarda oturmaq daha çox ailələrin dağılmasına səbəb olur. Sosial şəbəkənin əsas məqsədi ünsiyyət və dostluq qurmaqdır. Amma bizdə bu şəbəkələrdən düzgün istifadə olunmur".

### *Sosial şəbəkələrin yaratdığı problemlər üzündən psixoloqlara müraciət edən şəxslərin sayı həddindən artıq çoxdur*

**Psixoloq Azad İsazadə** APA-ya bildirib ki, sosial şəbəkələr cəmiyyətdə ünsiyyət yaratmaq tələbindən yaranıb: "Şəhərlərdə daş evlərin içində oturub bir-birimizlə ünsiyyət qurmuruq. Sosial şəbəkələr imkan verdi ki, insanlar sərhədsiz, kimlə istəyir ünsiyyət qursun. Mən hesab etmirəm ki, sosial şəbəkələr birbaşa boşanmaların sayına təsir göstərir. Sadəcə, ailə üzvlərindən biri sosial şəbəkədə kiminləsə ünsiyyət qurmuş həyat yoldaşını qısqana bilər. Amma bir şeyi başa düşməliyik ki, cütlükdə əks tərəf ünsiyyət axtarırsa, deməli, problem onun özündə deyil, əks tərəfdədir. Həmin şəxs qarşı tərəfə lazım olan ünsiyyəti verə bilmir ki, o da bunu kənarda, tanış olmayan insanda axtarır".

A. İsazadənin sözlərinə görə, sosial şəbəkələrin yaratdığı problemlər üzündən psixoloqlara müraciət edən şəxslərin sayı həddindən artıq çoxdur: "Bunların arasında hətta boşanmaya gətirən hallar da var. Şəbəkə sadəcə vasitə kimidir. Ailənin içində problem olur ki, kişi və ya qadın axşamlar internetdə yazışır. Amma internetdə cins yoxdur. Çünki orada yazılan kişi və ya qadın adının arxasında bilinmir kim oturub, onun sifəti necədir, yaşı neçədir. İnternet cinssiz mühitdir. Ona görə internetə qısqanmaq da düzgün deyil. Sadəcə, kimsə mənimlə ünsiyyət qurmursa, internetdə ünsiyyət qurursa, deməli, problem mənim özümdədir". Psixoloq deyib ki, hazırda sosial şəbəkədə ya-

ranmış problemlərlə əlaqədar ona müraciət edən 8 nəfərlə iş aparır. Yanvar ayı başlayandan isə belə problemli 15 şəxsə psixoloq yardımı göstərib: "İldən-ilə internetlə bağlı edilən müraciətlərin forması dəyişir. İki il əvvəl daha çox kompüter oyunları ilə bağlı problem yaranırdısa, indi daha çox sosial şəbəkələrlə bağlı müraciət edirlər. Adətən bir nəfər bütün şəbəkələrdə olur. Birindən çıxır, o birisinə girir. Bu zaman həm də gecə yuxusu ilə bağlı problem yaranır. Bütün gecəni otururlar, ünsiyyətdə olduqları insanlar gedib yatmayana qədər yatmırlar. İnsanları sosial şəbəkələrdə bu qədər vaxt keçirməyə ünsiyyətin çatışmazlığı vadar edir. Əsasən də gənclər ünsiyyət qurmaq, əylənmək üçün istər-istəməz maddi vəsait xərcləməlidirlər. Amma internetdə oturub eyni vaxtda bir neçə dostla ünsiyyətdə olmaq mümkündür. İnsanlar bir növ öz həyatlarını sosial şəbəkələrə açıb tökürlər. Burada heç bir norma yoxdur".

A. İsazadənin sözlərinə görə, psixoloqa müraciət edənlər içərisində yeniyetmələr, xüsusən də yeniyetmə qızlar üstünlük təşkil edir: "Əsas problem yenə də ünsiyyətdir. Oğlanlar yenə harasa çıxa bilirlər. Qızlar üçün isə evdən kənar ünsiyyət bir qədər problemləşib. Əsasən də axşamlar. Əvvəllər telefon əsas ünsiyyət vasitəsi idi, indi "Facebook" onu əvəz edir. Elə olub ki, ailədə əvvəlcə biri, sonra onun acığına o biri internetdə tanışlıq yaratmağa başlayıb. Sonda ikisində də bu məsələ açılıb, konflikt yaranıb, proses boşanmaya qədər gəlib çıxıb. Demirəm səbəb şəbəkədə fəaliyyət göstərmək idi, amma bu, onların arasında olan çatı daha da genişləndirdi və son damla oldu".

### *Din sosial şəbəkələrdə tanışlıqların əleyhinə deyil*

**"Məşədi Dadaş" məscidinin axundu Hacı Şahin Həsənli** APA-ya bildirib ki, hər hansı yenilik, elmi tərəqqi dini baxımdan müsbət qiymətləndirilir. Problem heç də sosial şəbəkələrin varlığında deyil, onlardan hansı məqsədlərlə istifadə olunmasındadır: "İstisna eləmək olmaz ki, bəzi hallarda insanlar arasında virtual tanışlıqlar ailələrin dağılmasına səbəb ola, onların əxlaqına mənfi təsir göstərə bilir. Amma bunun günahını sosial şəbəkələrdə axtarmaq düzgün olmazdı. Ümumiyyətlə, bunun əsas günahını insanların bu və ya digər əxlaqi dəyərlərə bağlılığında görmək lazımdır. Şəbəkələrin varlığı müsbət haldır. İnsanlar kiminləsə ünsiyyət qurmaq, tanışlıqlarını artırmaq istəyir, bu normaldır. Din də bu cür tanışlıqların əleyhinə deyil. Əsas olan ünsiyyətin mövzusudur. Bu isə sosial şəbəkələrlə yox, cəmiyyətin mənəvi durumu ilə bağlıdır". Azyaşlı uşaqların sosial şəbəkələrdə iştirakının əleyhinə olduğunu bildirən axund deyib ki, valideynlər tərəfindən bunun qarşısını almaq üçün nəzarət mexanizmləri olmalıdır: "Belə hallara qarşı mübarizə aparmaq üçün cəmiyyətin immuniteti olmalıdır. Azyaşlılar özbaşına buraxılarlarsa, bunun ciddi fəsadları ola bilər".

### *İnsanlar sosial şəbəkələrin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətlərini də bilməlidirlər*

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin informasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri İsfəndiyar Əliyev** də APA-ya bildirib ki, Azərbaycanda internet və sosial şəbəkələrlə bağlı tənzimlənmə aparılmır. Ona görə də ölkədə sosial şəbəkələr tam müstəqil fəaliyyət göstərir: "Sosial şəbəkələrin müsbət cəhəti də çoxdur. İnsanların bir-biri ilə ünsiyyət qurmasında, müəyyən məsələlərin müzakirəsində çox böyük üstünlüklər yaradır. Amma sosial şəbəkələrdən düzgün istifadə etmədikdə müəyyən problemlərə rast gəlmək olar. Xüsusən insanların aldadıl-ması, müxtəlif cərəyanlara cəlb edilməsi mümkündür. Ən vacib məqam insanların bu sahədə maarifləndirilməsidir. İnsanlar sosial şəbəkələrin müsbət cə-hətləri ilə yanaşı, mənfi cəhətlərini də bilməlidirlər. Bilirsiniz ki, sosial şəbəkələrdə çoxlu sayda informasiya toplanır. Bu informasiyalardan pis məqsədlər üçün də istifadə edilə bilər. Buna görə də sosial şəbəkələrdə işləyərkən mütləq məlumatlı olmaq lazımdır. Orda gənclərimizi, qızlarımızı bizim istəmədiyimiz cərəyanlara cəlb etmək imkanları var. İnsanları aldadaraq, müəyyən münasibətlər quraraq, onlardan sonra istifadə edə bilərlər. Bu təhlükə hər zaman var. Buna görə də insanlar çox diqqətli olmalıdırlar. Sosial şəbəkələrə daxil olarkən insan özü haqqında məlumatlar yerləşdirir. Öz profilini özü yaradır. Sonra həmin informasiyalar onun əksinə istifadə oluna bilər".

### **Bir daha internet asılılığının fəsadları barədə...**

İnternet asılılığı insanlarda bir sıra fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur. Bu isə həm onların özləri, həm də cəmiyyət üçün arzuolunmaz haldır. Mütəxəssislərin qənaətincə, internet asılılığının əsas psixoloji fəsadları bunlardır:

- Komüter arxasında özünü yaxşı hiss etmə və eyforiyaya qapanma;
- Kompüterdən ayrılmağın problemə çevrilməsi;
- Kompüter arxasında keçirilən vaxtın tədricən artması;
- Ailəyə, yaxınlara və dostlara qarşı etinasızlıq;
- Kompüterdən kənarda olarkən mənəvi boşluğun, depressiyanın, əsəb gərginliyinin yaranması;
- Öz fəaliyyəti haqqında işdə müdiriyyətə, evdə isə ailə üzvlərinə yalanlar uydurma;
- İş və ya təhsillə bağlı problemlərin yaranması.

İnternetdə uzun müddət vaxt keçirmə karpal kanalı sindromu (əl əzələlərinin uzun müddət gərilməsi nəticəsində yaranan problem), gözlərdə quruluq, miqren tipli baş ağrıları, bel ağrıları, qida rejiminin pozulması, şəxsi gigiyenaya qarşı etinasızlıq, yuxusuzluq kimi fiziki fəsadlar da yaradır.

***APA***

# MOZAİKA

## DÜNYANIN ƏN BÖYÜK TORPAQ MÜLKƏDARLARI

*Onların arasında kral və sultanlar daha çoxdur*



"Forbes" jurnalının son sayında dünyanın ən böyük torpaq mülkədarlarının yeni reytinq siyahısı açıqlanıb.

Reytinqə Böyük Britaniya kraliçası II Yelizaveta başçılıq edir. Səudiyyə Ərəbistanının kralı Ağdulla 2-ci yerdədir.

İlk onluqda sonrakı yerlərdə Roma Papası, Mərakeş kralı Məhəmməd, Tayland kralı Bumibhol, Oman sultanı Qabus, Nepal kralı Qyanendra, "Kidman Holdings", İordaniya kralı Abdulla və "AA Company" holdinqi var.

## ABŞ PREZİDENTLƏRİNİN PARADI

Madam Tüsso muzeyinin Vaşinqton filialı Corc Vaşinqtondan tutmuş Barak Obamayadək bütün ABŞ prezidentlərinin mum heykəllərindən ibarət sərgi açmışdır.

Prezidentlərin bir çoxu, o cümlədən Barak Obama və Con Kennedi xanımları ilə birlikdə təqdim olunmuşdur. Ronald Reyqanın yanında onun sevimli konfetlərini satan avtomat qoyulmuşdur. Eksponatların boynundan asılmış kiçik lövhəciklərdə siyasi xadimlərin bioqrafiyasından ən maraqlı faktlar verilmişdir. Sərginin ərsəyə gəlməsinə 2 milyon dollar xərclənmişdir. Prezidentlərin fiqurlarını hazırlamaq üçün muzeyin 70-dək mütəxəssisi bir neçə ay gecə-gündüz çalışmışdır.

Tüsso muzeyi filialının əməkdaşları bildirirlər ki, bu eksperimenti təkrarlamağa, məsələn, ABŞ-ın birinci xanımlarının mum fiqurlarından ibarət daha bir kolleksiya üzərində işləməyə hazırdırlar.

## İNTERNET İSTİFADƏÇİLƏRİNİN 2%-DƏ ASILILIQ VAR

*Dünyada internet istifadəçilərinin təxminən 2%-də beynəlxalq şəbəkədən asılılıq var*

RİA «Novosti»nin verdiyi məlumata görə, rusiyalı psixoterapevt Vitalina Burova bu qənaətdədir.

«İnternet istfiadəçilərinin sayı nə qədər artacaqsa, internetdən asılılıq da o qədər çoxalacaq», - deyə o, qeyd edib: «Özünü yüksək qiymətləndirə bilməyən, özünə inanmayan, impulslarını idarə edə bilməyən, hansısa məhdudiyyətləri çətin həzm edən, normal sosial münasibətlərdə problemləri olan şəxslərdə müxtəlif şeylərdən asılılıq olur. Spirtli içki, narkotik və sair kimi, internetdən də asılılıq ola bilər».



Mütəxəssis bildirib ki, internetdən asılılıq xüsusilə 17-21 yaş arası şəxslərdə daha çoxdur. Belə şəxslərin əksəriyyətini kişilər təşkil edir.

## GÖZ ALDADAN KÖRPÜ



AFP bildirir ki, Norveçdə ölkənin materik hissəsi ilə Averoy adasını birləşdirən "Atlanterhavsveien" yolundakı "Storseisundet Bridge" körpüsü baxanları heyrətə salır. 1989-cu ildə istifadəyə verilmiş körpünün uzunluğu 8,3 kilometrdir.

Kənardan baxanda belə təsir yaranır ki, körpünün tikintisi başa çatmayıb və ora ilə hərəkət edən avtomobillər də uçuruma düşür.

Amma belə deyil...

# MİŞEL OBAMA: «PREZİDENT, NƏHAYƏT, SİQARETİ TƏRGİTDİ»

*ABŞ-ın birinci xanımı Mişel Obama əri Barak Obamanın nəhayət, siqareti atdığını bildirib*



«The Washington Post» qəzetinin verdiyi məlumata görə, o, jurnalistlərə açıqlamasında Ağ Ev sahibinin ötən il 1 dənə də olsun siqaret çəkmədiyini söyləyib.

Xatırladaq ki, bir müddət əvvəl Ağ Evin mətbuat katibi «10 aydır prezidenti siqaret çəkən görmədiyini» bildirmişdi.

Barak Obamaya şəxsi həkimi ötən ilki müayinədən sonra siqareti atmasını məsləhət görmüşdü.

# AYAQQABI AVTOMOBİL

*Çinin «Kang Shoe» ayaqqabı istehsalçısının qeyri-adi reklamı*



Lenta.ru saytının verdiyi məlumata görə, qurum ayaqqabı formalı avtomobil yaradıb. Avtomobilin kuzası adi dəri ayaqqabıdır. Onun uzunluğu 3, eni isə 1 metrdir. Ayaqqabı-avtomobilin mühərriki haqda məlumat verilmir. Yalnız o məlumdur ki, ayaqqabının batareyası tam dolu olduqda, o, 400 kilometr yol qət edə bilir. Onun maksimal sürəti isə saatda 35 kilometrdir.

Şirkət bu qeyri-adi ayaqqabının hazırlanmasına 6 ay vaxt sərf edib. O, 4 min funt sterlinqə başa gəlib. İndi ondan daha 40 nüsxə hazırlanması və dünyanın bir sıra ölkələrində satışa çıxarılması nəzərdə tutulub.

# "ULDUZ OLSAM DA, QIZIM BUNU BİLMİR"

*Cessika Alba ailə sevinclərindən danışıb*



"Mail Online" bildirir ki, məşhur Hollivud ulduzu Cessika Alba milyonların sevimlisi olduğuna görə özünü "əsl ulduz" kimi hiss etmədiyini deyib.

"Ulduz olsam da, qızım bunu bilmir. Əslində, belə də olmalıdır. Hər dəfə evə qayıdanda Meri qaçaraq qarşıma çıxır və onu qucağıma alıb öpürəm. Bundan gözəl nə ola bilər ki?" - hamilə Alba bildirib.

29 yaşlı aktrisanın dediyinə görə, dünyada ailə sevincindən gözəl heç nə yoxdur.

# DÜNYANIN ƏN BAHALI ŞƏHƏRLƏRİ

Fransanın "Le Point" qəzetində dünyanın on ən bahalı şəhərinin siyahısı dərc edilmişdir. Bu siyahıya Anqolanın paytaxtı Luanda başçılıq edir. Əhalisinin 57 faizinin yoxsulluğun son həddində yaşadığı bu şəhərdə brilyant istehsalı ilə məşğul olan xarici müəssisələrdə çalışanlar yalnız yaxşı yaşayır və rahat həyat tərzi keçirirlər.

Bahalı şəhərlər sırasında dünyanın tanınmış şəhərlərindən London 17-ci və Nyu-York 27-ci yerdə gəldiyi halda, Yaponiyanın paytaxtı Tokio ikinci yeri tutur. Belə bahalığa əsas səbəb kimi dünyanı bürümüş maliyyə böhranı gətirilir.

Afrika qitəsinin daha bir ölkəsinin-Çadın N'Camen şəhəri siyahıda 3-cü yerdə, Moskva (4), İsveçrənin Cenevrə şəhəri (5), Yaponiyanın daha bir şəhəri Osaka 6-cı yeri tutur. Sadə BigMac menyusu üçün 27,08 dollar ödəməyin lazım gəldiyi Qabonun Librevill şəhəri 7-ci, İsveçrənin Sürix şəhəri 8-ci, Honkonq 9-cu və Danimarkanın paytaxtı Kopenhagen 10-cu yerdə gəlir.

